QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 139 (5859) **2 avqust** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Azərbaycan iqtisadi inkişaf yolunda

*Prezident İlham Əliyev: "Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"*

Səh 2



4

Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda ictimai çimərliklər yaradılır



5

NİYƏ MƏHZ ƏLİ HƏSƏNOV?



9

"Ölkəmizin inkişafı dünya statistikasında da özünü göstərir"



# Azərbaycan iqtisadi inkişaf yolunda

## *Prezident İlham Əliyev: "Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"*

**_İyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilib. Müşavirədə Prezident İlham Əliyev bu ilin əvvəlində qarşıya qoyulan vəzifələrin icra edildiyini, ölkəmizin inamla inkişaf etdiyini, böyük infrastruktur layihələrinin həyata keçirildiyini və ümumi iqtisadi vəziyyətin çox müsbət olduğunu bildirib. Dövlət başçısı bu ilin altı ayında iqtisadiyyatın, qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının məhsuldarlığının artdığını vurğulayıb._**



Qoyulan investisiyaların, aparılan islahatların, verilən subsidiyaların, kənd təsərrüfatına elmi yanaşmanın öz nəticəsini verdiyini qeyd edən dövlət başçısı bu sahənin gələcəkdə də dayanaqlı inkişaf edəcəyinə əminliyini bildirib. Altı ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulduğunu, bunun böyük hissəsinin qeyri-neft sektorunun payına düşdüyünü deyən Prezident İlham Əliyev ilin əvvəlindən böyük sosial paketin təsdiqləndiyini və əhalinin rifahının, yaşayış səviyyəsinin daim diqqət mərkəzində saxlanıldığını bildirib.



Bu ilin əvvəlində regionların sosial-iqtisadi inkişafına həsr olunan dördüncü Dövlət Proqramının qəbul olunduğunu vurğulayan dövlətimizin başçısı həm elektrik enerjisi, həm qazlaşdırma, həm də içməli su sahələrində gözəl nəticələrin əldə edildiyini diqqətə çatdırıb. Prezident İlham Əliyev yol infrastrulturu ilə bağlı görülən işlərdən danışdı, büdcə daxilolmalarının, eyni zamanda, valyuta ehtiyatlarının artdığını, manatın məzənnəsinin sabit qaldığını vurğulayıb.

Prezident İlham Əliyev paytaxtda icra edilən layihələrdən danışarkən, kommunal təsərrüfatın yeniləndiyini, nümunəvi həyətlərin istifadəyə verildiyini, şəhər nəqliyyatının müasirləşdiyini bildirdi, paytaxtımızın abadlaşması və gözəlləşməsi üçün böyük işlərin görüldüyünü, yeni istirahət zonalarının yaradıldığını vurğulayıb. "Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyən dövlətimizin başçısı ilin sonunadək nəzərdə tutulan bütün vəzifələrin icra ediləcəyinə əminliyini bildirib: "Bir sözlə, bütün iqtisadi göstəricilər, onu deməyə əsas verir ki, biz düzgün istiqamətdə inkişaf edirik və qarşıda duran bütün vəzifələri icra edirik".

### "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir"

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Onu da vurğulamaq lazımdır ki, bu illər ərzində, insanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır.

Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm."

Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində son 16 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir.

16 illik Prezidentliyi dövründə Cənab İlham Əliyev xalqın etimadını əməli fəaliyyəti, xeyirli və gərəkli işləri ilə doğruldub. Belə ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində, orta aylıq əməkhaqqı 7, minimum əməkhaqqı isə, 6,5 dəfə artıb. Təbii ki, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqəsinin, şəhid ailələrinin, əlillərin, qaçqın və məcburi köçkünlərin problemləri daim diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin ötən il keçirilən prezident seçkilərində qələbə qazandıqdan sonra imzaladığı ilk Fərmanın şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi haqqında olması deyilənlərin əyani sübutudur. Onu da, vurğulamaq lazımdır ki, bütün şəhid vərəsələrinə birdəfəlik ödənişlərin verilməsi prosesi bu il ərzində başa çatdırılacaq. Bütün bunlar ölkə əhalisinin sosial vəziyyətlərinin yaxşılaşmasına və özlərini güvənli hiss etməsində daha geniş imkanlar yaradır.

### Dövlət siyasətində xalq-dövlət birliyi

Ümumiyyətlə, ölkə Prezidenti İlham Əliyev hakimiyyətdə olduğu son 16 il müddətində daima xalqla birbaşa təmasda olub. İstər xarici siyasətlə bağlı fəaliyyətdə, istərsə də daxili idarəetmədə Prezident İlham Əliyev sadə vətəndaşlara söykənir: "Mən bütün azərbaycanlıların prezidentiyəm" şüarını gerçəyə çevirir.

Bütün bunlar, bir daha sübut edir ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır. Çünki Prezident İlham Əliyevin 16 illik Prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub. Ancaq daha bir fakt budur ki, tale hər bir xalqa bu cür mühüm xarizmalara sahib ola biləcək lider bəxş etmir. Və nə xoşdur ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev dühasının tarixi Liderliyini qəbul etməklə, yaşatmaqla bərabər, hazırda Onun layiqli davamçısı İlham Əliyev Liderliyi dövrünü yaşayır! Bununla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan strateji kurs daxili ictimai-siyasi sabitliyi və tərəqqini də ən yüksək səviyyədə təmin edib.

Bəli, bu, həqiqətən də, belədir! Bu gün Azərbaycan xalqı, ilk olaraq, öz Liderinə arxalanır, Xalqımız isə, məhz öz sevimli Prezidenti ətrafında daha da sıx birləşərək, ölkənin inkişaf və tərəqqisinə doğru inamla irəliləyir. ÇÜNKİ BU YOL ƏBƏDİ VƏ DÖNMƏZDİR!

**_RƏFİQƏ KAMALQIZI_**

# Heydər Əliyev Fondu dostluğun və əməkdaşlığın inkişafına önəm verir

***Bu gün Azərbaycanda, eləcə də, onun hüdudlarından kənarda fəaliyyəti ilə tanınan və nüfuz qazanan Heydər Əliyev Fondu əsrimizin qabaqcıl və humanizm prinsiplərini bəşər övladına təqdim etmək gücündə olan qurum kimi beynəlxalq miqyasda hörmətlə qarşılanır. Fondun fəaliyyəti dövründə həyata keçirilən genişmiqyaslı layihələr insanların ictimai-mədəni, sosial həyatının yüksəldilməsi və inkişafı baxımından, birmənalı olaraq, çoxsaylı insanların həyat tərzində dönüş yaradıb. Hər bir addımı böyük təntənəyə səbəb olan fond, xüsusilə, humanitar missiyada fəaliyyət proqramının həyata keçirməklə bütün yaş həddində olan vətəndaşların qayğı və problemlərin təminatçısına çevrilib.***




Belə ki, ölkə ərazisində uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli və fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilməsi Heydər Əliyev Fondunun, qısa bir zaman məsafəsində, gördüyü işlərin təntənəsi kimi qəbul olunur. Bunların hər biri fondun, qısa zamanda, məqsəd tək qarşıya qoyduğu amalın reallaşması nəticəsində baş tutub. Millət və dövlət maraqları baxımından, müstəsna əhəmiyyətə malik bir sıra layihələri uğurla gerçəkləşdirərək cəmiyyətdə mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilmiş Heydər Əliyev Fondunun qarşıya qoyduğu hər bir xoş məram, ilk növbədə, Ümummilli Liderin ali ideallarını özündə ehtiva edir.

Firavanlığı yaratmaq, həyat tərzində sağlam mühiti formalaşdırmaq, insanların fiziki sağlamlığına diqqət yetirmək, sülhün, əmin-amanlığın çarçısına çevrilmək, müasir dövrün tələblərinə və gələcəyin təminatı olan təhsilə, elmə böyük diqqət ayırmaq, fondun məqsədi olaraq, özünü büruzə verir.

İctimai, mesenatlıq və xeyriyyəçilik əməlləri, xalqlar arasında dostluğun möhkəmlənməsi, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyət, qayğıya ehtiyacı olan uşaqlara, təhsilə diqqət və s. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın humanizm prinsiplərindən qaynaqlanır. Onu da vurğulayaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında əhəmiyyəti ilə seçilir. Bu gün deyə bilərik ki, dünyanın bütün ölkələrində fondun həyata keçirdiyi layihələrə münasibət yüksəkdir. Mehriban xanım Əliyevanın dünyanın bir sıra nüfuzlu mükafatlarına layiq görülməsi də elə bu bəşəri dəyərlərə münasibətinin və fəaliyyətinin nəticəsidir. Azərbaycanın Birinci Xanımı sivilizasiyalararası dialoqa töhfə verməklə yanaşı, məktəblərin tikintisinə, dini məbədlərin bərpasına da köməklik göstərir. Mehriban xanım dostluğun, əməkdaşlığın inkişafı naminə diqqət yetirdiyi sahələrin hər biri Onun fəaliyyətinin yüksək səviyyədə olduğundan xəbər verir. Humanist, xeyriyyəçi layihələrilə dünya miqyasında tanınan və birmənalı olaraq, belə aksiyaların təşəbbüskarı kimi nüfuz qazanan Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti, layihələri ilə beynəlxalq aləmdə əks-səda doğurub.

## FONDUN XARİCİ ÖLKƏLƏRDƏ ƏHƏMİYYƏTLİ LAYİHƏLƏRİ ƏMƏKDAŞLIĞI DAHA DA DƏRİNLƏŞDİRİR

Ölkələr arasında qarşılıqlı əlaqələrin yüksək olduğu bir zamanda, Azərbaycan və Pakistan arasında dostluq münasibətlərinin daha da dərinləşməsində Heydər Əliyev Fondunun müstəsna rolunu qeyd etməliyik. Mehriban xanım Əliyeva çıxışlarının birində vurğulamışdır ki, Heydər Əliyev Fondu tərəfindən bir sıra mühüm layihələr və xeyriyyə proqramları Pakistanın müxtəlif yerlərində icra olunur: "Çox fərəhlənirik ki, birinci layihəmiz - Müzəffərabadda 2005-ci ilin oktyabrında güclü zəlzələ nəticəsində dağılmış qızlar məktəbinin tikintisi çox uğurlu olmuş və gələcək əməkdaşlığımız üçün yaxşı əsas yaratmışdır".

Mehriban Əliyevanın təşəbbüsü ilə zəlzələdən ən çox dağılan bölgələrdən olan Müzəffərabadın Rara bölgəsində 500 şagirdlik qızlar məktəbi tikilib. Xatırladaq ki, Heydər Əliyev Fondu tərəfindən Pakistanda silsilə humanitar yardımlar proqramı çərçivəsində "Edhi Home" kimsəsizlər evində sığınacaq tapan uşaqlara tibbi baxış və Hepatit B virusuna qarşı peyvəndləşdirmə aparılmış, Peşavər şəhərində "Akbar Care" serebral iflic institutunda imkansızlar üçün pulsuz müayinə təşkil edilmişdir. Eyni zamanda, Xayber Paxtunxva əyalətinin Laki Marvat şəhərinin qadın və uşaq xəstəxanasında açıq ürək əməliyyatları aparılmış, Hamza Fondu (Peşavər) üçün müasir qanköçürmə avadanlığı, laboratoriya ilə təchiz edilmiş təcili tibbi yardım maşını və iki min qanköçürmə paketi alınmış, Xayber Göz Fondunun yeni binasının tikintisi üçün maddi yardım göstərilib.

Fondun Pakistanda həyata keçirdiyi layihələrin Azərbaycan və Pakistan xalqlarının dostluq və qardaşlıq münasibətlərinin inkişafına öz töhfəsini verir.

Azərbaycan-Pakistan dostluq və qardaşlıq əlaqələri səmimi münasibət və möhkəm təməllər üzərində qurulub. Mehriban xanım Əliyeva tərəfindən icra olunan sosial və humanitar layihələr onun Pakistana dair səmimi münasibətinin təzahürüdür.

Heydər Əliyev Fondunun Azərbaycanda və xarici ölkələrdə həyata keçirdiyi humanitar layihələr çərçivəsində Cibuti Respublikasına tibbi avadanlıqlar göndərilib. Cibuti Mərkəzi Xəstəxanasının pediatriya şöbəsi 10 adda tibbi avadanlıqla təmin olunub və bu aksiya ölkənin səhiyyə sisteminin inkişafına, eləcə də, ikitərəfli münasibətlərin genişlənməsinə öz töhfəsini verir.

Fondun xarici ölkələrdə tarixi-mədəniyyət abidələrinin bərpası və yeni mədəniyyət obyektlərinin inşası sahəsində fəaliyyətini də qeyd etməliyik. Gürcüstanın Tbilisi şəhərində Azərbaycanın görkəmli şəxsiyyətlərinin - Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin yenidən qurulması və xiyabanın yaradılması, 2007-ci ildə Parisdə Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası, 2008-ci ildə Luvr Muzeyinin bərpası, İkinci Dünya müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin bərpası, Romanın Villa Borgeze Parkında Nizami Gəncəvinin abidəsinin ucaldılması, Vatikanda Roma katakombalarının bərpası, Moskvada M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının atriumunda Azərbaycanın görkəmli yazıçısı, filosofu və humanisti Mirzə Fətəli Axundovun abidəsinin ucaldılması, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması, Romada Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmirini misal göstərmək olar.

## FONDUN CƏMİYYƏTDƏ VƏ XARİCDƏ ARTAN NÜFUZUNUN İFADƏSİ

Görülən bu və ya digər işlərin, davamı olaraq, Heydər Əliyev Fondunun dəstəyi ilə Bosniya və Herseqovinanın Kotor Varoş şəhərində inşa olunan Təcili Tibbi Yardım Mərkəzinin yeni binası açılıb. Bu, Bosniya və Herseqovina ilə Azərbaycan arasında dərin qarşılıqlı münasibətlərin - dostluğun göstəricisidir. Fondun reallaşdırdığı bu layihələr ölkələrimiz və xalqlarımız arasında əlaqələrin genişlənməsinə şərait yaradır. Fondun xeyriyyəçilik fəaliyyətinin nəticəsi olaraq, Kotor Varoş şəhərində istifadəyə verilən və müasir avadanlıqla təmin edilən Təcili Tibbi Yardım Mərkəzi yerli əhali üçün mühüm töhfədir. Bu mərkəz, son dövrlər ərzində, Kotor Varoşda ərsəyə gətirilən ən müasir və yüksək standartlara cavab verən tikinti layihəsidir və yerli əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

Strasburq kafedralının XIV əsrə aid olan beş pəncərəsi bərpa edilmişdir. 1320-1340-cı illərdə salınmış vitraj şüşələrinin üzərində Müqəddəs Məryəmin və İsa peyğəmbərin həyatı əks olunub. Heydər Əliyev Fondu Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına maliyyə yardımı ayırmışdır.

Mehriban xanım Əliyeva dünya ölkələrindəki bu və ya digər fəaliyyətinə görə, o, Fransanın "Şərəf Legionu ordeni, Küveytin "Fəxri diplom"u, Polşanın "Xidmətlərə görə" ordeni, Serbiyanın "Sreten" ordeni və s. ilə təltif edilib. Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn tərəfindən Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya Pakistanın ali dövlət mükafatı - "Hilal-e-Pakistan" ordeninin təqdim edilməsi də, məhz gördüyü işlərə verilən qiymət idi.

Həyata keçirilən xeyirxah işlər Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqətin, habelə, bu gün Vətən, xalq naminə aparılan məqsədyönlü siyasətə dəstək vermək istəyinin əməli təzahürü olmaqla yanaşı, həm də fondun cəmiyyətdə və xaricdə artan nüfuzunun ifadəsidir.

Mehriban Əliyeva gördüyü işlərlə Azərbaycan qadınının xeyriyyəçi, mərhəmətli, ictimai-siyasi fəaliyyətdə olan bir varlıq olduğunu dünya ictimaiyyətinə bir daha sübut edir. Ölkəmizdən kənarda apardığı xeyriyyəçilik işləri Azərbaycan qadınının humanizm, mərhəmət kimi dəyərlərə malik olduğunu, dövlət strukturlarında, siyasi arenada və digər sahələrdə Azərbaycan qadınının istedadlı mütəxəssis kimi fəallıq göstərdiyini nümayiş etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda ictimai çimərliklər yaradılır









***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakı şəhərində ictimai çimərliklərin yaradılmasına başlanıb.***

Bakı Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, paytaxt sakinləri və eləcə də şəhərimizin çoxsaylı qonaqlarının istək və arzuları, onların IDEA İctimai Birliyinə müraciətləri nəzərə alınaraq Birliyin təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə dənizkənarı ərazilərdə mövcud özəl istirahət mərkəzləri və pullu çimərliklərə alternativ olaraq ictimai çimərliklərin yaradılmasına başlanıb.

İlk olaraq belə çimərlik Səbail rayonunda, Şıx çimərlik ərazisində, Salyan yolu 32 ünvanında (Bakı Şəhər Baş Gömrük İdarəsi ilə üzbəüz) dəniz kənarında 6 hektar sahədə yaradılıb. Əvvəllər baxımsız vəziyyətdə olan ərazi təmizlənərək abadlaşdırılıb, burada 60 kölgəlik, 6 yerdə soyunub-geyinmə kabinələri, 2 yerdə duş, 2 yerdə 2 kabinəli sanitariya qovşağı, istirahətə gələn vətəndaşların nahar etmələri üçün 2 söhbətgah quraşdırılıb, futbol və voleybol meydançaları yaradılıb, dəniz kənarına uzanan yola asfalt çəkilib, 3500 kvadratmetr ərazidə avtomobil dayanacağı yaradılaraq bura asfaltlaşdırılıb.

Vətəndaşların istirahətlərinin təşkili üçün çimərlik ərazisinə kifayət qədər oturacaq və qamaklar qoyulub, ərazi boyunca zibil konteynerləri quraşdırılıb, əlavə işlər görülüb.

Yaxın günlərdə Pirşağı və Buzovna qəsəbələrində yeni ictimai çimərlik istifadəyə veriləcək. Ümumilikdə isə paytaxtın dənizkənarı ərazilərində 7 yerdə belə çimərliklərin yaradılması nəzərdə tutulub.

Şıx ərazisində fəaliyyətə başlayan və digər ərazilərdə yaradılan ictimai çimərliklərə giriş və digər xidmətlərdən istifadə pulsuzdur. Ərazinin təmizliyini lazımi səviyyədə saxlanılması üçün burada xidmət personalı fəaliyyət göstərəcək.

## Bakı sakinləri və şəhərimizin qonaqları paytaxtda ictimai çimərliklər yaradılmasına görə təşəkkürlərini bildirirlər



Xəbər verildiyi kimi, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda ictimai çimərliklər yaradılması üzrə işlər başlayıb. Paytaxt sakinlərinin və şəhərimizin çoxsaylı qonaqlarının arzuları, onların IDEA İctimai Birliyinə müraciətləri nəzərə alınaraq, bu birliyin təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə ictimai çimərliklər yaradılmağa başlanıb. Bu çimərliklər hazırda mövcud olan özəl istirahət mərkəzlərinin və pullu çimərliklərin alternativi olacaq.



İlk belə çimərliklərdən biri Səbail rayonunda, Salyan şosesi, 32 ünvanında (Bakı Baş Gömrük İdarəsi ilə üzbəüz) 6 hektar ərazidə yaradılıb. Bu gün Şıx çimərliyinə gəlmiş Bakı sakinləri və ölkəmizin qonaqları AZƏRTAC-a müsahibələrdə ictimai çimərliklərin yaradılması barədə təəssüratlarını bölüşüblər.

Natalya Parfenyuk: "Mən Ukraynadan gəlmişəm. Burada hər şey yaxşıdır və ən başlıcası, hər şey pulsuzdur. Əvvəllər heç vaxt burada olmamışam, Azərbaycan hökuməti əhalinin yaxşı istirahəti məqsədilə şərait yaradılması üçün nə mümkündürsə edib. Buna görə dərin təşəkkürümü bildirirəm".



Azad Ələkbərov, Bakı sakini: "Sahilin çirklənməsi və zibillənməsi, çimərliklərdə sanitar-gigiyena normalarına riayət edilməməsi üzündən uzun müddət əziyyət çəkmişik. Burada asfalt yol yox idi, maşınlar tez-tez sıradan çıxırdı. İndi hər şey dəyişib. Sahil boyunca asfalt döşənib, avtomobillər üçün dayanacaq düzəldilib. Bundan əlavə, çimərlik ərazisində vətəndaşların istirahəti üçün kifayət qədər skamya, zibil qabları qoyulub. Bunlar bizi sevindirməyə bilməz".



Dadaşovlar ailəsinin üzvləri Təməl və Familə əvvəllər baxımsız vəziyyətdə olan bu ərazinin abadlaşdırılmasını və təmizlənməsini qeyd etdilər. Təməl Dadaşov Şıx çimərliyinin yeni görkəmi barədə təəssüratların belə ifadə etdi: "Biz çox razıyıq. Burada çətirlər, paltardəyişmə yerləri, duş kabinələri və söhbətgahlar düzəldilib, indi buraya gələnlər təbiətin qoynunda yaxşı istirahət edə bilərlər". Xatırladaq ki, yaxın günlərdə Pirşağı və Buzovna qəsəbələrində yeni ictimai çimərliklər istifadəyə veriləcək. Bütövlükdə, paytaxtın sahilyanı ərazisində 7 bu cür çimərlik yaradılması nəzərdə tutulur. İctimai çimərliklərə giriş və xidmətlər pulsuzdur. Ərazidə təmizliyə riayət edilməsi üçün xidmət heyəti nəzərdə tutulur.

## "Azərbaycan Cənub Qaz Dəhlizi ilə bağlı 2,75 milyard dollarlıq borclanmadan imtina edib"

Azərbaycan Cənub Qaz Dəhlizi layihəsi ilə bağlı 2,75 milyard dollarlıq borclanmadan imtina edib. AZƏRTAC xəbər verir ki, bu fikirləri Maliyyə naziri Samir Şərifov iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə səsləndirib. "Dövlət tərəfindən bəzi əhəmiyyətli layihələrə dövlət zəmanətləri verilir. O cümlədən belə mühüm layihələrdən biri də Cənub Qaz Dəhlizi layihəsidir. Sevindirici haldır ki, bu layihə üzrə nəzərdə tutulmuş maliyyələşdirməyə tam ehtiyac yaranmayıb, lakin xarici maliyyə qurumları ilə danışıqlar aparılıb, yəni onlar bu vəsaitləri ayırmağa hazır idilər. Amma birinci paket olaraq biz 2 milyard dollarlıq borclanmadan imtina etdik, buna ehtiyac yaranmamışdı. İndi də əlavə sevindirici haldır ki, artıq Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi - MIGA ilə bizim Cənub Qaz Dəhlizi şirkəti tərəfindən kredit müqaviləsi bağlanıb - 750 milyon dollar məbləğində. İndi isə o kreditin götürülməsinə ehtiyac yoxdur. Yəni, həm o layihə üzrə qənaət hesabına, həm də layihənin işə salınması ilə əlaqədar bizim o şirkətimiz artıq sərbəst maliyyə axınına malik olub və o, vəsait hesabına bu borcları təmin edir".

## Nazir: "İlin ikinci yarısında 120 milyon manat güzəştli kredit veriləcək"



Bu ilin altı ayında sahibkarlara 50 milyon manatadək güzəştli kredit ayrılıb. AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə deyib. Nazir bildirib ki, ilin ikinci yarısında 120 milyon manat həcmində güzəştli kredit veriləcək. Layihələr qəbul olunub, baxılıb və hazır layihələr müəyyənləşdirilib.

# NİYƏ MƏHZ ƏLİ HƏSƏNOV?

## YAXUD ƏLİ KƏRİMLİNİN BÖYÜK MƏYUSLUQ VƏ MƏĞLUBİYYƏT PSİXOLOGİYASINDAN İRƏLİ GƏLƏN "QUDUZLUQ EFFEKTİ"




***Son günlər dağıdıcı müxalifət düşərgəsindən, xüsusilə də, AXCP sədri Əli Kərimlinin nəzarətində olan trol qruplarının sosial şəbəkə hesablarından, Sevinc Osmanqızı və Qənimət Zahidin "youtube" kanallarından Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənova qarşı bu gün də davam edən məqsədli və məkrli hücumlar başlanıb.***




Qənimət Zahidin "Azərbaycan saatı" kanalına müsahibə verən Ə.Kərimli Əli Həsənova qarşı hücumların edilməsinə işarə verdikdən sonra total hücum kampaniyası "Osmanqızı", "Azadlıq" qəzeti "youtube" kanallarında, eləcə də, "facebook" hesablarında davam etdirilib. Məğlub və ifşa olunmuş qaragüruhun "psixoloji" üstünlük qazanmaq və özlərinə təsəlli vermək üçün pafoslu və populist başlıqlı videolar və statuslar paylaşmaqla ictimai rəydə çaşqınlıq yaratmağa çalışıblar. Lakin nə fayda, artıq gec idi. Çünki Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Ə.Kərimlinin və onun trol qruplarının antimilli mövqeyini, antidövlət fəaliyyətini ifşa etmişdi. Məhz Əli Həsənov son günlər Azərbaycan dövləti ilə bağlı baş verən geosiyasi və geoiqtisadi proseslərə dair ənənəvi məqalə yazısı ilə çıxış edərkən, hər bir azərbaycanlının həyəcanla izlədiyi "Keşikçi dağ" insidentində ölkəmizin milli maraqlarının müdafiəsi üçün Prezident İlham Əliyevin siyasətinə dəstək olduğunu nümayiş etdirdiyi bir zamanda ölkəmizi yeni münaqişəyə cəlb edə biləcək təxribat xarakterli çıxışlar edən AXCP sədri Ə.Kərimlinin və onun trol dəstəsinin xəyanətkar mövqeyini darmadağın etdi.

"Keşikçi dağ" təxribatı baş verərkən Vətənini, ərazi bütövlüyünü düşünən hər bir azərbaycanlı, ilk olaraq, bu hadisədə erməni və ölkəmizi yeni hərbi-siyasi böhrana salmaq məqsədini güdən müxtəlif kəşfiyyat qurumlarının əli olduğunu düşünürdü. Əlbəttə ki, bu və ya digər nöqteyi-nəzərdən, bu mülahizələrə şübhə yoxdur. Təbii olaraq da, Azərbaycan ictimaiyyəti, ziyalılar, gənclər dövlətçilik mövqeyindən çıxış edərək, dövlətimizin təxribata uymaması, insidentin diplomatik və dinc yollarla həll olunmasının vacibliyini qabardırdılar. Amma AXCP sədri Ə.Kərimli və onun trol qrupları, xüsusilə də, Sevinc Osmanqızı və Qənimət Zahid Azərbaycanı yeni hərbi-siyasi böhrana sürükləmək üçün təxribat statusları paylaşır, yayımlar edir, müzakirələr açır, "xüsusi təlim keçmiş ekspertlər" vasitəsilə erməni və maraqlı qrupların mövqeyindən çıxış edirdilər. Bununla, Ə.Kərimli və onun qaragüruhçuları düşmən dəyirmanına su tökmək missiyasını yerinə yetirməklə, Azərbaycan ictimai rəyində çaşqınlıq yaratmaq vəzifəsini reallaşdırmaq istəyirdilər.

Təsəvvür edin ki, Ə.Kərimlinin iddiasına görə, Azərbaycan Gürcüstana müharibə elan etməli idi. Lakin bu "yarımçıq" siyasətçi anlamır ki, Azərbaycan, onsuz da, arxasında böyük güclərin durduğu Ermənistanla müharibə vəziyyətindədir. Belə çıxır ki, Azərbaycan Gürcüstana da müharibə elan etməklə, iki cəbhədə müharibəyə qoşulmalı və sonu görünməyən tunelə girməli idi.

### Baxın, budur Ə.Kərimli məntiqi, cəbhəçi düşüncəsi...

Ə.Kərimliyə xatırlatmaq lazımdır ki, özünün dövlət katibi olduğu 1992-ci ildə düşüncəsiz, hesablanmamış və boğazdan yuxarı bəyanatlarla Azərbaycanı bütün dünyaya düşmən elan etmişdilər. Təsəvvür edin ki, Ə.Kərimlinin təmsil olunduğu hökumət Təbrizi azad edib, İranı, uyğurlara azadlıq vəd edib Çini Azərbaycana qarşı çevirmişdilər, Ermənistanın isə dostuna. Eyni dövrün düşüncəsində və ab-havasında olan Ə.Kərimli, görünür, Azərbaycan üçün eyni aqibəti və vəziyyəti arzuladığından, məsuliyyətsiz statuslarla və müsahibələrlə çıxış edir...

Məhz Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun sözügedən məsələdə faktlarla Ə.Kərimlini ifşa etməsi, bütövlükdə, cəbhəçilərə tarix və siyasət dərsi keçməsi onlarda böyük məyusluq və məğlubiyyət psixologiyasından irəli gələn quduzluq effekti yaradıb. Onları hədəqədən çıxaran isə, Əli Həsənovun aşağıdakı fikirləri olub:

- Tərəfdarlarının sayı "Keşikçi dağ"da Azərbaycan əsgərini təxribata çəkmək istəyənlərdən bir o qədər də çox olmayan AXCP sədri Ə.Kərimli və ətrafı neçə gün dalbadal həmin insidentin böyüməsinə dəstək verərək, sosial şəbəkələrdə "zəif və iradəsiz hakimiyyət" obrazı yaratmağa çalışdı, dövlət rəsmilərinin bu istiqamətdəki soyuqqanlı qərarlarını, təmkinli, ölçülü-biçili bəyanatları və fəaliyyətini təhrif etdi, əllərinə fırça alaraq, Silahlı Qüvvələrimizin reputasiyasına qara yaxmaq istiqamətində xarici şəbəkələrdə əməli-başlı "rəssamlıq" etdilər. Açıq desək, Azərbaycanı və Gürcüstanı qarşıdurmaya, konfliktə sürükləyərək zəiflətmək, bununla, özlərindən asılı vəziyyətə salmaq istəyən qüvvələrin qurduğu bu oyuna əyinlərinə "Milli Şura" forması geyinən Ə.Kərimli və dəstəsi, məhz təxribatçı rolunda qatıldı. Odur ki, mən, ilk növbədə, siyasi davranışları dövlət və idarəçilik zehniyyətinə tərs mütənasib olan, "bir dövləti qurmağa uzun illər, dağıtmağa isə bir neçə saat lazımdır" həqiqətini hələ də dərk etməmiş Ə.Kərimliyə həmin aforizmin müəllifi, məşhur ingilis şairi və siyasətçisi Lord Bayronu oxumağı yox, daha çox öz keçmişinə nəzər salmağı tövsiyə edirəm...

Bunlarla yanaşı, tarixin silinməz səhifələrindən də faktlar gətirən Əli Həsənov bu gün özü haqqında "müştəbeh" obraz formalaşdıran Ə.Kərimliyə "öldürücü" zərbələr endirib. Diqqət yetirin:

- Heç kim unutmayıb ki, Ə.Kərimlinin təmsil olunduğu hakimiyyətin Surət Hüseynovun hərbi qiyamının qarşısını almaq üçün Gəncəyə göndərdiyi bütün yüksək vəzifəli şəxslər bir neçə günün içərisində bir-birinin ardınca əsir düşdülər. Onlar heç də sərhəddə keşik çəkən gənc əsgər deyildilər, hər biri onlarla silahlı cangüdənlərin müşayiətilə gəzən, dövlətin, xalqın təhlükəsizliyinə cavabdehlik daşıyan "məsuliyyət" sahibləri idilər. Nədənsə, 709 saylı hərbi hissənin heç həndəvərinə çatmamış "məsuliyyət" hissləri də, silahlarını da, bəziləri, hətta simalarını da itirdilər. Hər halda, Ə.Kərimli çox yaxşı xatırlamalıdır ki, onun dövlət katibi olduğu hakimiyyətin baş prokuroru bir sillədən sonra öz prezidentinin həbsinə sanksiya verdi. Elə, silahdaşlarının məlumatına görə, Ə.Kərimlinin özü də Əbülfəz Elçibəyin vəfat etdiyi gün onun birinci müavini ola-ola, öz sədrinin əleyhinə "Azadlıq" qəzetində biabırçı yazılar yazdırıb, təhqir dolu məqalələrin yayımlanmasını sifariş edib. Əlbəttə, bu faktdan sonra Ə.Kərimli ilə həmin baş prokuror arasında hansısa mənəvi keyfiyyət fərqinin olmadığı aydın görünür. Elə cəsarət fərqindən də çox danışmağa, məncə, ciddi lüzum yoxdur. Çünki 1993-cü ilin yayında Ə.Kərimlinin dövlət katibi olaraq Prezident Aparatından çıxmağa saatlara cürət etməməsinin, axırda köməkçisinin arxasında gizlənə-gizlənə xidməti avtomobilinə oturaraq qaçmasının şahidləri, hələ ki, sağdırlar...

Elə bu faktlar idi ki, Ə.Kərimlinin hansı səviyyədə bir yalançı, "yarımçıq" siyasətçi və pis blogger olduğunu ictimaiyyətə göstərdi. Elə bu səbəbdən də, AXCP sədri haqqında yaratdığı mifin dağıldığını görüb hücuma keçdi, şər-böhtan kampaniyası başlatdı. Onun "Azərbaycan saatı" kanalında Qənimət Zahidlə sifarişli müsahibəsində yuxarıda verdiyimiz Əli Həsənovun məqaləsindən hissələrdəki hər bir sözə "cavab" verməklə, əslində, özü də isbatladı ki, artıq ifşa olunub, gecdir...

Onun trol dəstəsinin Əli Həsənova qarşı hücumları isə obrazlı şəkildə desək, kaftar sürüsünün aslana hücum edib zingildəyərək, geri qaçmasına bənzəyir. Bunu da zaman özü isbatlayacaq...

***Ramil Vəlibəyov,***
***YAP Nizami rayon təşkilatı GB sədrinin müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru***

## Ermənistanın XİN rəhbəri "sabitlik" sözünün mənasını düzgün başa düşmür



Ermənistanın xarici işlər naziri "sabitlik" sözünün mənasını düzgün başa düşmür. SİA-nın məlumatına görə, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva öz "Twitter" səhifəsində Ermənistan XİN rəhbəri Zoqrab Mnatsakanyanın Ermənistanı "sabitlik adası" adlandırmasını şərh edərkən deyib. L.Abdullayeva erməni nazirin bu sözü düzgün anlamadığını vurğulayıb:"Başqa dövlətin torpaqlarını işğal altında tutan və etnik təmizləmə aparan təcavüzkar necə "sabitlik adası" ola bilər? İlk növbədə beynəlxalq hüquqa hörmət etmək lazımdır!"

## "Ölkə həyatının bütün sahələrində islahatlar gedir"



"Mən ötən gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilən sosial-iqtisadi sahə ilə bağlı müşavirəni çox diqqətlə izlədim. Həmin müşavirədə bütün sahələrə toxunuldu. Göstərilən rəqəmlər, səsləndirilən fikirlər, gələcəkdə qarşıda duran məqsədlər, vəzifələr və s. hamısına aydınlıq gətirildi". Bunu SİA-ya açıqlamasında millət vəkili Elman Məmmədov deyib.

"Gəlin görək göstəricilər nəyi sübut etdi? Son illər ərzində Azərbaycan bütün sahələrdə, o cümlədən sosial-iqtisadi sahədə çox ciddi uğurlara imza atıb. Təkcə elə 2019-cu il başlayandan sosial sahədə və başqa sahədə olan islahatlar, hətta kadr islahatları və s. bütün bunların hamısı Azərbaycanın çox uğurlu, sürətli inkişafından xəbər verir. Cənab Prezidentimiz müşavirədə bir məqama diqqəti çəkdi və dedi ki, bu hələ o demək deyil ki, biz hər şeyə nail olmuşuq. Yəni biz bu istiqamətdə daha yeni-yeni uğurlara imza atmaq üçün dünya təcrübəsindən, bu sahədə olan beynəlxalq təcrübələrdən müsbət mənada yararlanmalıyıq. Təbii ki, bütün bunların hamısı da bir məqsədə - ölkəmizin, dövlətimizin bütün sahələrdə inkişafına, güclənməsinə və insanlarımızın maddi, sosial durumunun yaxşılaşmasına xidmət edir. Bu istiqamətdə də hələ görüləsi işlərimiz çoxdur. Cənab Prezidentimiz müşavirədə bunu xüsusilə qeyd etdi və tapşırığını verdi. Yəqin ki, indi bu geniş formada yaxın günlərdə özünün sərəncamlarla , qərarlarla, fərmanlarla təsdiqini tapacaqdır.Yəni ölkə həyatının bütün sahələrində islahatlar gedir", - deyə, E.Məmmədov fikrini tamamlayıb.

## Bakı-Tbilisi-Ceyhan kəməri ilə indiyədək 432 milyon tondan çox neft daşınıb



İlin birinci yarısında Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) vasitəsilə təqribən 16 milyon ton (120 milyon barreldən çox) xam neft ixrac edilib və həmin neft Ceyhan limanında 149 tankerə yüklənib. "BP Azerbaijan" şirkətindən AZƏRTAC-a verilən məlumata görə, yanvar-iyun aylarında BTC üzrə əməliyyat xərclərinə təxminən 55 milyon dollar, əsaslı xərclərə isə təqribən 12 milyon dollar sərf olunub.

1768 kilometr uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyununndan istismardadır. Həmin vaxtdan bu ilin ikinci rübünün sonunadək BTC ilə ümumilikdə təqribən 432 milyon tondan çox (təxminən 3,2 milyard barreldən artıq) xam neft nəql olunub və Ceyhan limanında 4 min 234 tankerə yüklənərək dünya bazarına göndərilib. Hazırda BTC boru kəməri Azərbaycandan əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, boru kəməri vasitəsilə digər xam neft və kondensat həcmləri də, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti nəql olunur.

# Bəhruz Quliyev: "İqtisadi uğurların təməlində sosial siyasətin ardıcıl təminatı və reallığı dayanır"



***"Bildiyimiz kimi, bu ilin əvvəlindən başlayaraq, Prezident İlham Əliyev yeni və inqilabi islahatlar paketinin icrasının başlandığını bəyan edib. Artıq ötən müddət ərzində, Azərbaycan xalqının bütün təbəqələri əldə edilən uğur və nailiyyətləri görür və alqışlayır". Bu fikirləri "Olaylar.az" saytına "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezident İlham Əliyevin yanında keçirilən sosial-iqtisadi müşavirəni şərh edərkən deyib.***

Onun sözlərinə görə, Azərbaycanda dördüncü Dövlət Proqramı qəbul edilib və hazırkı dövrə qədər reallaşdırılan proqramların hər biri ölkəmizdə bütün sahələrin inkişafına nəhəng töhfələrini verib: "Xüsusilə, əhalinin sosial təminatının daha da yaxşılaşdırılması istiqamətində atılan hər bir addım bu gün öz bəhrəsini göstərməkdədir. Məhz bu gerçəkliyin özü xalqın dövlətə olan etimadını, o cümlədən, dövlətin xalqa arxalanması amilinə çox böyük stimul verir. Növbəti Dövlət Proqramı qazanılan uğurların məntiqi davamıdır. Çünki dövlət başçısı xalqın firavanlığının daha da artırılmasını istəyir, bu yöndə vətəndaş-dövlət birliyinə söykənən strategiya qurur. O da, əbəs deyil ki, Cənab İlham Əliyev çıxışında son illərdə bir sıra layihələrlə bağlı çoxsaylı işlərin aparıldığını desə də, həllini tapmayan bəzi məsələlərin də olduğunu vurğulayıb. Ona görə də, növbəti Dövlət Proqramının yerdə qalan məsələlərin həlli üçün vacibliyini, xüsusilə, qeyd edib. Baxın, ölkədə elektrik enerjisinin təchizatı, içməli su və qazlaşdırma kimi həyat əhəmiyyətli məsələlər artıq öz həllini tapıb və bununla yanaşı, suvarılma işləri tam sürətlə həyata keçirilməkdədir. Bütün bunlar isə, bayaq da qeyd etdiyimiz kimi, yalnız və yalnız xalq üçün atılan çox möhtəşəm addımlardır. Əlbəttə ki, xalqımız da bu işləri görür, dəyərləndirir və alqışlayır. Həmçinin, kənd təsərrüfatı, sənaye sahəsi və başqa sahələr üzrə dinamik işlər uğurlu nəticələrlə müşahidə olunmaqdadır".

"Ölkə başçısının biznes mühitinin yaxşılaşdırılması istiqamətində də, önə çəkdiyi fikirlər çox əhəmiyyətli və vacibdir" deyən Bəhruz Quliyev uğur tandeminin göstəricisi olaraq, Azərbaycanın dünya ölkələri sırasında ən islahatçı ölkə kimi tanınması ilə nəticəsini tapdığını bildirib: "Cənab Prezident bu barədə Dünya Bankının "Doing Business" proqramı çərçivəsində Azərbaycanın 10 ən islahatçı ölkə kimi tanındığını və ölkəmizin 32 pillə irəliləyərək, hazırda 25-ci yerdə olduğunu xatırladarkən, onu qeyd etmək istəyir ki, bütün bunlar, məhz iqtidarın apardığı siyasi uğur tendensiyasının bariz göstəricisidir. Bu, həmçinin, Azərbaycanın inamla və qətiyyətlə irəliyə doğru getməsinin məntiqi sübutudur".

"Daha bir xüsusi məqama toxunaraq, qeyd etmək istərdim ki, reallaşdırılan sosial paketlərdən 4 milyondan çox vətəndaşımız bəhrələnib və burada minimum əmək haqlarından başlayaraq, minimum pensiyaların artırılmasına qədər, habelə, aztəminatlı ailələrin, şəhid və müharibə veteranları ailələrinin, qaçqın və məcburi köçkünlərin, mətbuat işçilərinin, səhiyyə, təhsil, mədəniyyət və s. insanlarımızın yararlandığını xatırlatmaq istərdim" deyə qeyd edən siyasi ekspert dövlətin öz gəlirlərinin mühüm hissəsinin, bilavasitə sosial sahələrə yönəldildiyini bildirib: "Çünki sosial sahə dövlət başçımızın, daim vurğuladığı kimi, prioritet istiqamətdə olmaqla, Onun diqqəti mərkəzindədir. İqtisadi uğurların təməlində sosial siyasətin ardıcıl təminatı reallığı dayanır. Diqqət yetirək, təkcə problemli kreditlərlə bağlı qəbul edilən qərar nə qədər insanlarımızın sevincinə səbəb oldu. Bütün bunlar, əlbəttə ki, dövlətin xalqına olan bağlılığının sübutudur. O cümlədən, əldə edilən uğur və nailiyyətlər xalq-iqtidar birliyinin təcəssümüdür ki, həmin təcəssüm Azərbaycanı daim, davamlı şəkildə irəliyə aparacaq, dünyanın lider dövlətləri sırasındakı yerini və rolunu möhkəmləndirəcək".

# Vüqar Rəhimzadə: Uğurlu iqtisadi göstəricilər məqsədyönlü siyasətin, təkmil islahatların bəhrəsidir



***"Hər bir ölkənin tərəqqisində, davamlı inkişafında möhkəm təmələ əsaslanan siyasət əsas rol oynayır. Azərbaycanın bu günündən əvvəlki illərə nəzər yetirdikdə zamanın tələblərinə uyğun olaraq təkmilləşən, yenilələn siyasətin hansı uğurlara yol açdığını aydın görürük. Azərbaycan beynəlxalq maliyyə qurumlarının hesabatlarında 10 ən islahatçı ölkə arasında yer tutursa, biznes mühitinin yaxşılaşdırılması fonunda yüksək rəqabətqabiliyyətli iqtisadiyyata malik ölkə kimi tanınırsa, bu, gələcəyə hesablanmış inkişaf strategiyasının nəticəsidir. Ən əsası ölkəmiz dünyada sosial dövlət kimi nüfuz qazanıb. Bu mühüm məqam həyata keçirilən siyasətin əsasında vətəndaş amilinin dayandığını bir daha təsdiqləyir."***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

V.Rəhimzadə qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyev "İlin əvvəlində qarşımıza qoyduğumuz vəzifələr icra edilir, ölkəmiz inamla inkişaf edir, böyük infrastruktur layihələri icra olunur. Ümumi iqtisadi vəziyyət çox müsbətdir və bu, özünü rəqəmlərdə də əks etdirir" fikirləri ilə 2019-cu ilin də uğurlu sonluqla başa çatacağına əminliyini ifadə edir və bunu rəqəmlər əsasında diqqətə çatdırır: "2019-cu ilin 6 ayında iqtisadiyyatımız 2,4 faiz, qeyri-neft sektoru 3,2 faiz, qeyri-neft sənayesi 15,7 faiz, kənd təsərrüfatı 13 faiz artıb. Ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub. Bu sərmayənin böyük hissəsi qeyri-neft sektorunun payına düşür. İnflyasiya cəmi 2,5 faizdir".

"Uğurlu iqtisadi göstəricilər məqsədyönlü siyasətin, təkmil islahatların bəhrəsidir",- söyləyən V.Rəhimzadə əlavə edib ki, bu inkişaf əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların atılmasını, vətəndaşların firavan həyatına xidmət edən fərman və sərəncamların imzalanmasını da şərtləndirir. Bu ilin ilk aylarından təsdiqlənən sosial islahatlar paketi əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində inqilabi addımlar kimi dəyərləndirildi. Möhtərəm Prezidentimizin təqdim etdiyi birinci sosial islahatlar paketi nəticəsində minimum əməkhaqqı martın 1-dən 40 faizədək artırılaraq 130 manatdan 180 manata, pensiyaların minimum məbləği isə 40 faiz artırılaraq 116 manatdan 160 manata çatdırıldı. Dövlətimizin başçısı İlham Əliyevin ikinci sosial paketini əhatə edən 2019-cu il 18 iyun tarixli sərəncamları bir daha insan amilinə verilən dəyərə işıq salmaqla yanaşı, əhalinin sosial rifah halının yaxşılaşdırılmasına xidmət edən addımların davamlılığını nümayiş etdirdi. İmzalanan 17 sərəncamla minimum əməkhaqqının, müxtəlif sahələrdə çalışanların maaşlarının artırılması təmin olundu. Bu sənədlərə əsasən minimum əməkhaqqının məbləği cari ilin sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çadırılacaq. Dövlətimizin başçısı İlham Əliyev qeyd olunan müşavirədə bir daha diqqəti cari ilin ötən dövründə həyata keçirilən sosial islahatlara yönəldərək bu rəqəmi də açıqlamışdır ki, sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir".

V.Rəhimzadə vurğulayıb ki, atılan bu addımlar dövlətimizin başçısı İlham Əliyevin 2003-cü ildə irəli sürdüyü bu hədəfə işıq salır: "Sosial-iqtisadi göstəricilər təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmalıdır. Eyni zamanda, Prezident İlham Əliyev bu mühüm məqamı da çıxışlarında vurğulayır ki, iqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanmalıdır. Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirədə səsləndirilən fikirlər və rəqəmlər bir daha bu hədəflərə yüksək səviyyədə nail olunduğunu təsdiqlədi. "Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik",- söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirib ki, sosial sahə bizim üçün prioritetdir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir".

Baş redaktor uğurlarımıza söykənərək diqqəti bu günlərdə BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında təşkil olunmuş Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Foruma yönəldərək bu mühüm məqamı da açıqlayıb ki, BMT İnkişaf Proqramının insan inkişafı indeksinə görə Azərbaycan "orta insan inkişafı" qrupu ölkələrini tərk edərək, "yüksək insan inkişafı" ölkələri kateqoriyasına daxil edilib: "Həmin Forumda Azərbaycanın yoxsulluqla mübarizə sahəsində təcrübəsi təqdir olunub, öyrənilməsinin vacibliyi bildirilib. Son 15 ildə yoxsulluq səviyyəsinin 49 faizdən 5 faizə enməsi təbii ki, təkmil sosial-iqtisadi islahatların nəticəsidir. İşsizliyin səviyyəsi 5 faizdir. Təkcə cari ilin 6 ayında 60 min yeni iş yeri açılıb. Dövlətimizin başçısı İlham Əliyev daim bu hədəfi açıqlayır ki, yeni iş yerlərinin açılması davamlı olmalıdır. Bu mühüm məqsədi şərtləndirən əsas amil isə ölkəmizin demoqrafik vəziyyətidir. Son 15 ildə əhalinin sayı 1,5 milyon nəfər artıb. Artıq 2019-cu il Azərbaycan tarixinə 10 milyonuncu vətəndaşın dünyaya gəlişi, 10 milyonluq ölkə olmağımız kimi mühüm hadisənin yazılması ilə yadda qalacaq".

# Polşa jurnalında Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi ilə bağlı məqalə dərc olunub

Polşanın ingilisdilli Yeni Şərqi Avropa jurnalında Azərbaycanın Qoşulmama Hərəkatına (QH) sədrliyi ilə bağlı məqalə dərc olunub.




Bu barədə AZƏRTAC-a Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzindən məlumat verilib. Mərkəzin eksperti Vasif Hüseynovun müəllifi olduğu məqalə QH-nin müasir beynəlxalq münasibətlər sistemindəki əhəmiyyətindən bəhs olunur, Azərbaycanın Hərəkata üzvlüyünün ölkəmizin xarici siyasi maraqlarına uyğun olduğu diqqətə çatdırılır.

Müəllif bildirir ki, 120 dövlətin üzv olduğu, 17 dövlətin və 10 beynəlxalq təşkilatın müşahidəçi kimi qoşulduğu Qoşulmama Hərəkatı Soyuq Müharibənin gərgin dövründə - 1961-ci ildə hərbi bloklara qoşulmamaq prinsipi ilə yaradılıb. "Sovet İttifaqının süqutundan sonra bir müddət düşünülürdü ki, Hərəkat artıq öz əhəmiyyətini itirib. Lakin üzv dövlətlərin üzləşdiyi müxtəlif xarakterli (hərbi, siyasi, iqtisadi, iqlim dəyişikliyi və s.) yeni çağırışlar beynəlxalq əməkdaşlığın əhəmiyyətini artırıb və QH-ni bu əməkdaşlığın təşviq edilməsi üçün əlverişli bir platforma kimi yenidən canlandırıb",- deyə müəllif yazır.

Vasif Hüseynov QH-nin bu ilin 25-26 oktyabr tarixlərində Bakıda keçiriləcək 18-ci sammitində Azərbaycanın hərəkata 3 illik sədrlik dövrünün başlamasını ölkəmiz üçün mühüm diplomatik uğur kimi səciyyələndirib.

# "Neftin hazırkı qiyməti Azərbaycanın daxili proqnozlarından 6 dollar çoxdur"



Neftin hazırkı qiyməti Azərbaycanın daxili proqnozlarından 6 dollar çoxdur. AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Bankın sədri Elman Rüstəmov iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə deyib. "Neftin qiyməti ilin əvvəlindən 20 faizə qədər artıb və 66 dollardır. Bu, bizim daxili proqnozlarımızda, yəni büdcə və sosial-iqtisadi proqnozlarda qoyduğumuz proqnozdan 6 dollar çoxdur. Siz qeyd etdiyiniz kimi, strateji valyuta ehtiyatlarımız son illərdə əhəmiyyətli dərəcədə artmışdır. Biz inamla bütövlükdə böhrandan öncəki səviyyəni bərpa etməyə doğru gedirik. Qırx doqquz milyard dollar bizim ümumi daxili məhsuldan daha çoxdur. Bu, Azərbaycanın həm yüksək beynəlxalq ödəmə qabiliyyətini, həm də yüksək maliyyə təhlükəsizliyini ifadə edir", - deyə o əlavə edib.

# Məqsədyönlü tədbirlər turizmin inkişafını sürətləndirir





***Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində böyük nailiyyətlər əldə edib. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz getdikcə daha da yeniləşir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin nəticəsində ölkəmizin qeyri-neft sənayesi də dinamik inkişaf edir, qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələri yaradılır.***

Hazırda bu istiqamətdə aparılan işlər ölkənin bütün regionlarında uğurla davam etdirilir. Ölkənin iqtisadi inkişafının baza sütunlarından biri olan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edərək, ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb.

## “BUGÜNKÜ REALLIQLAR, BÖLGƏLƏRİMİZİN ÇİÇƏKLƏNMƏSİ, BÜTÜN ŞƏHƏRLƏRİMİZDƏ GEDƏN QURUCULUQ, ABADLIQ İŞLƏRİ GÖSTƏRİR Kİ, BİZ DÜZGÜN YOLDAYIQ”

Dövlət proqramlarının icrası istiqamətində görülən işlər nəticəsində, ölkənin hər yerində genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib. Cənab İlham Əliyevin vurğuladığı kimi, əsas məqsədimiz Azərbaycanın inkişafını daha da sürətləndirməkdir, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır və biz buna nail ola bilmişik: “Bugünkü reallıqlar, bölgələrimizin çiçəklənməsi, bütün şəhərlərimizdə gedən quruculuq-abadlıq işləri göstərir ki, biz düzgün yoldayıq”.





Bütün bunlar ölkədə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, eləcə də mövcud çağırışların tələblərinə uyğun çevik iqtisadi islahat tədbirləri sayəsində mümkün olub.

Qeyri-neft sektorunun dinamik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər turizm sahəsinin inkişafında da mühüm nəticələrin əldə olunmasına gətirib çıxarıb.Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan turizmin inkişafının təmin edilməsi istiqamətində mühüm işlər görülüb. Ölkəmizin qeyri-neft sahələri arasında prioritet mövqelərdən birini tutan turizm sənayesinin inkişafı üçün Azərbaycan özünəməxsus resurslara və potensiala malikdir. Sözügedən sahə üzrə bu günə qədər həyata keçirilən dövlət proqramları və digər normativ-hüquqi sənədlər ölkənin turizm sahəsində əsas inkişaf prioritetləri, perspektivləri və problemlərin həlli istiqamətində atılan mühüm addımlar olmuşdur. Azərbaycanın turizm sahəsində turizm imkanlarının təbliğ edilməsi, daxili turizmin inkişafı və turizm xidməti infrastrukturunun qurulması sahəsində böyük işlər görülüb və hazırda bu işlər davam etdirilməkdədir. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi və dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin davamlı olaraq həyata keçirilir.

Bütün bunlarla yanaşı, Azərbaycanın bənzərsiz gözəlliklərə malik məkanları, onu turizm ölkəsi olaraq dünyada tanıdıb. Dünyanın müxtəlif ölkələrindən Azərbaycana gələn qonaqlar yüksək səviyyədə qurulmuş turizm obyektlərində istirahət edərək, buranın təbiətinə valeh olurlar. Bu turizm-istirahət mərkəzləri dağ, çay və meşə zolaqları ilə əhatə olunur. Hər bir obyektdə istirahət üçün gözəl şərait yaradılıb. Geniş ərazilərdə atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti, üzgüçülük hovuzları, buz üstündə konki meydançası, alpinizm məşğələləri və s. hər bir turisti maraqlandırır. Ölkəmizə səfər edən turistlər buranın adət-ənənələri, milli mətbəxi, mədəniyyət və tarixi, təbiəti ilə bağlı məlumat əldə edir, istirahətləri yüksək səviyyədə təşkil olunur. Son illərin statistikası göstərir ki, öz məzuniyyətini Azərbaycanda keçirmək istəyində olan turistlərin sayında ilbəil artım müşahidə olunur. Onlar ölkəmiz haqqında eşitdikləri ən xoş duyğuları yaşamaq və təsdiqləmək üçün bu gözəl məkanda gəlməyə can atırlar.

Görülən işlər Azərbaycana səfər edən turistlərin sayının artmasına səbəb olub. Onu da vurğulamaq yerinə düşərdi ki, Azərbaycanda turizmin inkişafına təkan verən amillərdən biri də ölkədə keçirilən beynəlxalq tədbirlər, konfranslar, simpozimlar və müxtəlif görüşlərdir. Belə tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycanın tanıdılması istiqamətində uğurlar sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, bu gün biz Azərbaycanda çox böyük turist axınını müşahidə edirik: “Ölkəmizin təbii imkanları, şəhərlərimizin gözəlliyi, Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik, əlbəttə ki, turistləri daha da çox cəlb edir. Eyni zamanda, Bakıda və ölkəmizin digər yerlərində keçirilən mötəbər beynəlxalq tədbirlər, əlbəttə, burada öz rolunu oynayır...”

Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində əldə olunan irəliləyişlər, bu gün ölkəmizi dünyada turizm ölkəsi kimi də tanıda bilib. Son illərin turizm statistikası sənayenin bu növünün ölkəmizdəki inkişaf səviyyəsinə və dinamikasına əyani sübutdur. Təsadüfi deyil ki, turizm sahəsindəki inkişaf tempinin əsas göstəriciləri kimi qəbul edilən gəlmə turistlərin sayı, onların Azərbaycanda turizm məqsədilə çəkdikləri xərclər, yerləşdirmə vasitələrinin, turizm müəssisələrinin, mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmələrin və yerləşdirilmiş şəxslərin sayı və bir sıra digər göstəricilərdə artım müşahidə edilmişdir. Təkcə bu ilin birinci yarısında Azərbaycanı ziyarət etmiş xarici qonaqların sayı 1,4 milyona çatıb ki, bu da, ötən ilin eyni dövründə ölkəyə gəlmiş 1,3 milyon xarici ziyarətçi ilə müqayisədə 86 min və ya 6,5 faiz çox qonaq deməkdir.

Qeyd edək ki, əgər 2014-cü ilə qədər Azərbaycana gələn turistlər, əsasən, MDB ölkələrindən, Türkiyə və Avropadan idisə, bu gün onun coğrafiyası genişlənib. Rusiya Federasiyası, Gürcüstan, İran, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Ukrayna, İraq, Küveyt və digər ölkələrin vətəndaşlarıdır.

Turizmin qloballaşması müasir dövrün reallığıdır. Turizmin təşkilinə üstünlük verən ölkələr dünyanı tam şəkildə qəbul edir, onun hər yerində sülhün və əmin-amanlığın qorunmasına çalışırlar. Çünki müharibələr, münaqişələr və terror hadisələri turizmin inkişafına mane olan ən başlıca amillərdir. Bu gün ölkəmizdəki sabitlik və əmin-amanlıq turizmin də inkişafında önəmli faktorlardan biridir.

Coğrafi mövqeyinə görə əlverişli bir ərazidə yerləşən Azərbaycanda turizm ən perspektivli və yüksək potensiallı sahə hesab edilir. Dövlətin turizmə yaxından diqqəti və qayğısı bu sahənin gələcək inkişafına zəmin yaradır. Dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına genişləndirilməsi nəzərdə tutulur. Təbii ki, Azərbaycanda turizm sahəsində dövlət siyasəti turizmin gələcək inkişafı üçün onun əsas prioritetlərini müəyyən edir.

Azərbaycanda, ötən 16 il ərzində, turizm sektorunun inkişafına yönəlmiş dövlət proqramları, bu sahəyə yatırılan investisiyalar, xidmət sektorunun inkişafı və regionlarda yol-nəqliyyat infrastrukturunun yenidən qurulması nəticəsində, ölkəyə gələn xarici turistlərin sayında hər il artım qeydə alınır. Görülən tədbirlər şaxəli və fərqlidir. Bu gün Azərbaycanda turizm bazarı açıq və rəqabətə davamlıdır. Bu sahənin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur.

***Zümrüd BAYRAMOVA***

# Yaxın Şərq: dörd keçmiş imperiyanın yeni savaşı?




***Son dövrlərdə ekspertlər Böyük Britaniyanın xarici siyasətində mümkün dəyişiklikləri təhlil etməyə və proqnozlaşdırmağa çalışırlar. O cümlədən Londonun Yaxın Şərq istiqamətində fəallaşa biləcəyindən bəhs edilir. Bu kontekstdə konkret olaraq London, Moskva, Ankara və Tehran xəttində geosiyasi fəallığın gözlənildiyi tezisi irəli sürülür. Bunun üçün müəyyən tarixi və geosiyasi əsaslar da mövcuddur. Böyük Britaniya Avropa İttifaqından çıxarsa, xarici siyasət məsələlərində müəyyən korrektələrin olması ehtimalı az deyil. Çox güman ki, bu baxımdan Yaxın Şərq istiqamətində London aktivlik göstərəcək. Eyni zamanda, onun təkbaşına hərəkət etməyəcəyi də qətidir. Bu aspektdə ekspertlər Böyük Britaniyanın Türkiyə, İran və Rusiya ilə müəyyən təmaslar qurmasının mümkünlüyündən yazırlar. Buna görə də məsələnin geosiyasi təhlili üzərində geniş dayanmağa ehtiyac görürük.***

## Tarix və müasirlik: imperiyaların maraqları dəyişibmi?

İndi ekspertlər Yaxın Şərqdə keçmiş böyük imperiyaların yeni savaşının başladığından yazırlar. Bəlkə də müasir mərhələdə geosiyasi mənzərəyə və dinamikaya "savaş" kəlməsinin işığında baxmaq bir dəbdir. Və bu halda da kimlərsə "orijinal" görünmək üçün "köhnə imperiyaların yeni savaşı" ifadəsini işlədirlər. Lakin məsələnin ritorik aspektindən daha dərində olan konkret proseslər də inkaredilməzdir.

Yaxın Şərqdə geosiyasi mənzərənin dəyişdiyi danılmazdır. Böyük oyunçular da məlumdur: ABŞ, Rusiya, Avropanın böyük dövlətləri, Çin, Türkiyə, İran və bir sıra böyük ərəb dövlətləri. Bu dairəni daha məhdud tərkibdə götürmək də olar: ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Rusiya, İran və Türkiyə. Bir qədər də konkretləşdirsək, belə bir mənzərə alınır - ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə və İran!

Sonuncu konfiqurasiyada Böyük Britaniya bir qədər qeyri-adi görünür, çünki Avropa İttifaqından kənarda baxılır. Ekspertlərin "imperiyaların savaşı" ifadəsini də məhz bu faktora görə işlətdiklərini düşünmək olar. Çünki "Breksit"in fonunda bu, xeyli maraqlı və düşündürücü görünür. London Brüsseldən ayrılırsa, tarixən ciddi təsirə malik olduğu Yaxın Şərq siyasətində hansı düzəlişlər edə bilər? O, müstəqil güc kimi meydana atılırsa, həmin regionda hansı böyük güclərlə dialoqa və əməkdaşlığa gedə bilər?

Bu suallar Boris Consonun baş nazir seçilməsindən sonra ekspertlər üçün sanki daha da aktuallaşıb. B.Conson, obrazlı desək, siyasi aspektdə qalmaqallı fiqurdur. Ən azından, Donald Trampın simpatiyasının olduğu siyasətçi kimi ənənəvi siyasi elitanın "özününkü" sayılmır. B.Conson "Breksit"in sonlanmasında və Böyük Britaniyanın Aİ-dən çıxmasında çox maraqlıdır. Bu mövqeyinə görə də tənqid olunur. Lakin o, təreddüd edən adam deyil və siyasi xəttini davam etdirir. Baş nazir olandan dərhal sonra bəyan edib ki, "Breksit" prosesini oktyabrın 31-nə qədər həll etmək lazımdır. Bunun üçün Brüsselə yeni saziş hazırlamaq gərəkdir.

Bunlar təbii ki, siyasi baxımdan maraqlı və aktualdır. Eyni zamanda, ekspertlər B.Consonun şəxsiyyəti ilə bağlı türk izini də vurğulayırlar. Daha konkret desək, onun tərcümeyi-halında "türk dosyesi"ni daha çox qabardır, B.Consonun ata tərəfdən dədəsinin türk olması faktına diqqət yetirirlər. Türkiyə siyasi dairələrində də bu məqama diqqət yetirilir. Bu səbəbdən ekspertlər Rəcəb Tayyib Ərdoğanın B.Consonu təbrikində Türkiyə ilə Birləşmiş Krallıq arasında münasibətlərin yaxşılaşmasına ümid etdiyini bildirməsində xüsusi məna axtarır və B.Consonun Osmanlı keçmişinə vurğu edirlər.

Burada ekspertlərin haqlı-olub olmadığını demək istəmirik. Lakin böyük dövlətlərdə qan qohumluğu faktorunun elə də rol oynamadığı məlumdur. Məsələn, D.Trampın da dədəsi almandır, lakin onun siyasətində "almançılıq"dan əsər-əlamət yoxdur. B.Consonun da türk dədəsi Mustafa Kamal Atatürkün həbsi haqqında qərar çıxaran adam olub. Bundan başqa, B.Conson uşaqlıqdan ingilis mühitində böyüyüb və onun həyat fəlsəfəsində türklüyün harada olduğu məlum deyil. Bütün bunların fonunda Böyük Britaniyanın dövlət maraqlarını qan qohumluğuna qurban verəcək hər hansı siyasətçinin İngiltərədə baş nazir ola biləcəyini ehtimal etmirik.

Bəs onda hansı səbəblərdən ekspertlər B.Consonla bağlı türk faktorunu qabartmağa çalışırlar? Görünür, burada başqa səbəblərlə yanaşı, B.Consona rəqib olan dairələrin onu vurmaq üçün türk məsələsini süni olaraq qabartmaları da vardır. Çünki Qərb siyasi və ictimai şüurunda "türk olmaq" bir çox hallarda düşmənə işləməklə eyniləşdirilir.

## Fərqli şərtlər: yeni geosiyasi konfiqurasiyanın yaranması

Bunlara rəğmən, bizcə, məsələnin ciddi geosiyasi tərəfləri də mövcuddur. Bəli, Böyük Britaniya Avropa İttifaqında müstəqil davranacaqsa və Yaxın Şərqdə nüfuz sahibi olmaq istəyəcəksə, mütləq Türkiyə faktorunu Brüsseldən fərqli qiymətləndirməlidir. Birincisi, tarixən Böyük Britaniya və Osmanlı Yaxın Şərqin geosiyasi yapısını formalaşdırıblar. Köhnə məcraya yeni oyunlarla qayıdış istisna deyil.

İkincisi, Türkiyə hazırda Yaxın Şərqdə ciddi oyunçu olan Rusiya və İranla ortaq hərəkət edir. Lakin tamamilə onlarla deyil - Ankara Qərb faktorunu qətiyyən arxa plana atmır. Onun məqsədi müstəqil oyunçu kimi regionda marağını təmin etməkdir. Bu baxımdan həm Rusiya və İran, həm də artıq Böyük Britaniya üçün cəlbedicidir. Real və potensial güc baxımından da Türkiyə regionun lideridir. Onun siyasi-diplomatik və hərbi təsirindən başqa böyük tarixi təcrübəsi də var. Ankara Yaxın Şərqdə hər daşın altında nə olduğunu çox yaxşı bilir. Böyük Britaniya nəyə görə belə bir güclə dialoqa getməsin? Və əgər bunu B.Conson duya bilirsə, onda o, Ankaranın deyil, Londonun marağını gözləmiş olur.

Üçüncüsü, Türkiyə Böyük Britaniya üçün Moskva və Tehrana optimal çıxışdır. O səbəbdəndir ki, Böyük Britaniya daha çox antiqərb əhval-ruhiyyəli Rusiya və İranla daha çox Qərb əhval-ruhiyyəli Türkiyə ilə birlikdə münasibət qura bilər. Ankara da dəfələrlə bəyan edib ki, Yaxın Şərq siyasətinin dərin kökləri vardır və bütün mənzərəyə qlobal geosiyasi proseslərin özəllikləri prizmasından baxır. Bu məqamda Böyük Britaniya ilə Türkiyəni birləşdirən faktorlar az olmaya bilər.

Məsələnin başqa tərəfi Rusiyanın Böyük Britaniya və Türkiyə ilə münasibətlərinə bağlıdır. Skripal məsələsinə görə London və Moskva arasında soyuqluq mövcuddur. Son olaraq Tereza Mey ilə Vladimir Putin arasında ağır dialoq olmuşdu. B.Consonun T.Meylə müqayisədə Rusiyaya daha loyal münasibət göstərəcəyini düşünmək doğru olmazdı. Ancaq Yaxın Şərqdə həm Böyük Britaniyanı, həm də ABŞ-ı təmsil edə bilər. Fransızlar bu missiyanın öhdəsindən gələ bilmirlər. B.Conson isə D.Trampın məqsədlərini yaxşı anlayan və onları dəstəkləyən siyasətçi kimi Yaxın Şərqdə ab-havanı dəyişə bilər.

Təbii ki, Moskva Böyük Britaniyanın Aİ-dən xaric və ABŞ-dan fərqli Yaxın Şərq siyasəti yeritməsinə müsbət yanaşır. Bu əsasda iki böyük güc ortaq qənaətə gələ bilərlər. Bu, həm də Türkiyəni Aİ-dən kənarda tutmaq üçün Kremlə lazım gəlir. Bu o demək deyil ki, Yaxın Şərq məsələsində Böyük Britaniya-Türkiyə-Rusiya "üçlüyü"ndən danışmaq olar. Moskvanın maraqları baxımından Londonun Vaşinqtondan daha uyğun olması həm də İran məsələsinə görə inandırıcıdır. Amerikadan fərqli olaraq, Avropa ölkələri İrana daha yumşaq münasibət göstərirlər. Əslində, D.Tramp da İranla savaşdan çox danışıqlara üstünlük verməyə başlayıb. Deməli, Böyük Britaniya İran məsələsinə görə də ABŞ üçün maraqlı ola bilər.

Burada Avropa və Rusiyanın İranla Türkiyə arasında manevr etməyə çalışdıqları da vurğulanmalıdır. Nə Böyük Britaniya, nə də Rusiya istəməz ki, İran və Türkiyədən hər hansı biri qəti olaraq nüfuz sahibi olsunlar. Ankara və Tehran Avropa və Rusiyaya sərf edən miqyasda təsirə malik olsalar, daha yaxşı olar. Buna görə də London Tehran faktoruna ikincidərəcəli faktor kimi baxmaz.

Vurğulanan məqamlar onu göstərir ki, Yaxın Şərqdə ənənəvi olaraq təsir gücünə malik olmuş Böyük Britaniya, Türkiyə, Rusiya və İran yeni geosiyasi qüvvələr balansı yarada bilərlər. Onlar daha aktiv şəkildə regional proseslərə təsir edə bilərlər. Ancaq bu, hələlik nəzəri olaraq belə görünür. Konkret nəticənin necə olacağı məlum deyil.

Fikrimizcə, burada hadisələr daha çox B.Consonun yeridəcəyi siyasətdən asılı olacaq. Əgər "Breksit" onun nəzərdə tutduğu kimi oktyabrın sonuna başa çatsa, onda Londonun Yaxın Şərq siyasətində dəyişikliklər daha tez özünü göstərə bilər. Əks halda, qeyri-müəyyənlik qalmaqda davam edəcək. Bundan başqa, Suriyada proseslərin davamı da əhəmiyyətli olacaq. Türkiyə Suriyanın şimalında təhlükəsiz zona yaratmaqda qərarlıdır. Suriyaya Türkiyənin yeni hərbi müdaxiləsi dəngələri kökündən yeniləşdirə bilər. ABŞ-ın dəstəklədiyi radikal separatçı qurumların ağır zərbələr alması Rusiya və İran faktorunu da gücləndirmiş olur. Bu halda Londonun mövqeyi daha aktual görünəcək.

Beləliklə, Yaxın Şərqdə yeni geosiyasi küləklər əsir. Meydana fərqli bir geosiyasi güc çıxa bilər. Ancaq onun reallaşması bir çox faktorlardan asılı olduğundan, hələlik ehtimallarla danışmaq olar. Görünür, tədricən "bütün daşlar yerinə oturacaq"!

***Newtimes.az***



# Şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı işləri davam edir

*Bu günədək 11294 şəhidin 16764 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunmaqla, birdəfəlik ödəmə ilə təminat proqrammı, artıq 92,1 faiz icra olunub*

***Son 16 il ərzində bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafını təmin edib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Ölkəmizdə əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə, prinsipcə, yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur.***

2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi daxil olub. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial- iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq, həyata keçirilir.

Ölkəmizdə 11 aprel 2018-ci il tarixdə keçirilən prezident seçkilərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev növbəti dəfə xalqın böyük əksəriyyətinin səsini qazanaraq parlaq qələbə qazandıqdan sonra imzaladığı ilk Fərmanın - 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin, Onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Beləliklə, hər iki Fərmanın icrası olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün dövlət büdcəsindən 135 milyon manat vəsait ayrıldı. Bu günə qədər 11294 şəhidin 16764 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanının icrası olaraq, şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təminatı işləri davam edir. Daha 227 şəhid üzrə 370 vərəsəyə birdəfəlik ödəmə veriləcək. Birdəfəlik ödəmələrin yaxın günlərdə həmin vərəsələrin bank hesablarına köçürülməsi üçün müvafiq işlər aparılır.

Ümumilikdə, 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. Onlardan bu günədək 11294 şəhidin 16764 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunmaqla, birdəfəlik ödəmə ilə təminat proqramı artıq 92,1 faiz icra olunub.

## AZƏRBAYCANIN SOSİALYÖNÜMLÜ DÖVLƏT SİYASƏTİNİN ƏSASINDA HUMANİZM PRİNSİPLƏRİ DAYANIR

Dövlət başçısı İlham Əliyevin fevral ayında imzaladığı 8 Sərəncam, 4 Fərman sıravi vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin və başqa kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb və bu tədbirlər sosial sahədə inqilabi dəyişikliklər kimi xarakterizə olunur.

19 fevral 2019-cu il tarixli Fərman isə, istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyinin təmin olunmasına xidmət etməklə, Azərbaycanın sosialyönümlü dövlət siyasətinin əsasında humanizm prinsipləri dayandığının növbəti təsdiqi oldu. Dövlət başçısının imzaladığı 25 fevral 2019-cu il tarixli Sərəncam isə, ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərdi. Sərəncamla 600 minədək şəxsə, o cümlədən, 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlərin, Prezidentin aylıq təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılması təmin edildi, əlavə olaraq, bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu.

"Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq, 180 manatdan 250 manata çatdırılacaq. Bu, 2019-cu il ərzində dövlət başçısının tapşırığı ilə minimum əməkhaqqında edilən artıq ikinci ciddi artımdır.

Göründüyü kimi, bu və ya digər sərəncamlar dövlət siyasətinin sosialyönümlülüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xəttə prioritet təşkil etdiyini göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bakıda Avropa İttifaqı və Kənd Təsərrüfatı Nazirliyinin tvinninq layihəsi təqdim edilib




Avqustun 1-də Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Kənd təsərrüfatı sahəsinə dövlət dəstəyinin effektivliyinin və səmərəliliyinin artırılması üçün Kənd Təsərrüfatı Nazirliyinin potensialının gücləndirilməsi" adlı Tvinninq layihəsinin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, Kənd Təsərrüfatı nazirinin müavini İlhamə Qədimova nazirliyin indiyədək Avropa İttifaqı ilə birlikdə bir sıra layihələri uğurla həyata keçirdiyini bildirib. O qeyd edib ki, 20 ildən artıq müddətdə davam edən əməkdaşlığımız geniş təcrübə mübadiləsinə imkan verib. "Yeni layihə Azərbaycanda kənd təsərrüfatının inkişafında, bu sahə üçün əhəmiyyətli olan kadrların hazırlanmasında və biliklərin artırılmasında xüsusi rol oynayacaq", -deyə İ.Qədimova diqqətə çatdırıb.

Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin Əməkdaşlıq şöbəsinin rəhbəri Simona Gatti yeni layihənin Azərbaycanın kənd təsərrüfatı və kənd yerlərinin inkişafı potensialının davamlı artımına mühüm töhfə verəcəyinə əminliyini bildirib. Onun sözlərinə görə, layihənin müxtəlifliyi ona ətraf mühiti və kəndin mədəni irsini qorumağa imkan yaradacaq. Simona Gatti deyib: "Avropa İttifaqının bu sahədə ən uyğun və yüksək bacarıqlara malik üç ölkəsinin - Litva, İtaliya və Polşanın Avropa İttifaqı-Azərbaycan təşəbbüsünə qoşulmasını görməyə çox şadam. Bu layihə kənd təsərrüfatı, kənd inkişafı və qida təhlükəsizliyi sahələrində Aİ-Azərbaycan tərəfdaşlığını davam etdirir və kənd həyat səviyyəsinin yaxşılaşdırılmasına, ərzaq təhlükəsizliyinin yüksəldilməsinə, bazara çıxışı və beləliklə də, ticarət perspektivlərini artırır". O bildirib ki, Aİ 2011-ci ildən Azərbaycanda kənd təsərrüfatı sektorunun və kənd yerlərinin inkişafına 17 milyon avro kredit ayırıb. Bura qida təhlükəsizliyi, fitosanitar və baytarlıq sahələri aiddir.

Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) sədri Mirzə Əliyev isə çıxışında deyib ki, aqrar sahəyə dövlət dəstəyi bilavasitə kənd yerlərinin inkişafına xidmət edir. Çünki kənddə yaşayan insanın həyat səviyyəsi aqrar sahədə məşğulluqla bağlıdır. M.Əliyev bildirib ki, subsidiyaların məqsədyönlü və təyinatı üzrə yönləndirilməsinin təşkili qarşıda duran əsas vəzifədir. Ağıllı alətlərlə idarə edilən subsidiya sistemi həm dövlət vəsaitini qorumağa imkan verəcək, həm də fermerlərə dəstək olaraq, istehsalı həvəsləndirəcək.

AKİA-nın sədri tvinninq layihəsi haqda ətraflı məlumat verərək qeyd edib ki, layihənin məqsədi Avropa İttifaqı Ümumi Kənd Təsərrüfatı Siyasətinin uğurlu mexanizmlərinin və ən yaxşı təcrübələrin müəyyənləşdirilməsi yolu ilə Azərbaycanda kənd yerlərinin inkişafının həyata keçirilməsi üçün milli siyasət və vasitələrin gücləndirilməsi üçün Kənd Təsərrüfatı Nazirliyinə dəstək verməkdir.

# "Ölkəmizin inkişafı dünya statistikasında da özünü göstərir"



"Cənab Prezidentin sosial-iqtisadi sahə üzrə müşavirədə səsləndirdiyi rəqəmlər Azərbaycanın növbəti inkişaf mərhələsinə daxil olduğunu göstərir". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Deputatın sözlərinə görə, aparılan məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatımız güclənir, iqtisadi blokda qeyri-neft sektorunun həcmi artır, sosial sahə prioritet sahəyə çevrilir: "Ölkəmizin inkişafı dünya statistikasında da özünü göstərir. İslahatlar həyatımızın vacib elementinə çevrilir, aparılan siyasət insanların həyat tərzində də özünü göstərir. Cənab Prezidentin siyasi xətti Azərbaycanın və hər bir vətəndaşın maraqlarına cavab verdiyini bir daha yəqin edirik".

Qeyd edək ki, iyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilib.

***Ceyhun Rasimoğlu***

# "Şahdəniz"dən bu vaxtadək 108 milyard kubmetrdən çox təbii qaz çıxarılıb



İndiyədək Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından 27 milyon ton kondensat hasil edilib. Bu barədə "BP Azerbaijan" şirkəti məlumat yayıb. Bildirilir ki, "Şahdəniz"dən ilk hasilat başlandığı dövrdən bu vaxtadək yataqdan 108 milyard kubmetrdən çox təbii qaz əldə olunub.

Qeyd edək ki, cari ilin yanvar-iyun aylarında "Şahdəniz" yatağından - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birgə ümumilikdə 8,4 milyard standart kubmetr qaz və təqribən 2 milyon ton (14,4 milyon barrel) kondensat hasil edilib.



# 121 yaşlı Azərbaycan kinosu

## 2 Avqust Azərbaycan Milli Kino Günüdür

***Azərbaycan Milli Kino Günü, artıq neçə illərdir ki, kinematoqrafçıların peşə bayramına çevrilib. Hər il, ənənəvi olaraq, 2 avqust tarixini kino işçiləri peşə bayramı kimi qeyd edir, yaratdıqları filmlərlə peşəkar səviyyədə olduqlarını nümayiş etdirirlər. Sözsüz ki, onların əməyi dövlət tərəfindən yüksək qiymətləndirilir və müxtəlif fəxri adlar və mükafatlarla təltif olunurlar. Azərbaycanın müstəqillik əldə etməsi ilə kino işçilərinin də peşə bayramı 27 avqust tarixində deyil, məhz bu gün qeyd olunur. Ümummilli Lider Heydər Əliyevin Sərəncamı əsasında, 2 Avqust Milli Kino Günü elan olundu. Təbii ki, yeni baxışlar, yeni quruluş cəmiyyət qarşısında keyfiyyətcə yeni məqsəd və vəzifələr qoymuşdur. Azərbaycanda milli ideologiyanın və cəmiyyətin yeni inkişaf modellərinin qurulması və digər bu kimi sosial problemlər humanitar elmlərin öncül tədqiqat istiqamətlərinə çevrilmişdir. 1990-cı ildən sonra Azərbaycan kinosunda çəkilən filmlərin sayı əvvəlki illərə nisbətən azalmışdır. Bununla belə, Azərbaycan kinematoqrafçıları böyük əhəmiyyətli, həyati mövzulara müraciət edərək, estetik tələblərə cavab verə biləcək filmlər çəkmişlər. Belə ki, "Yarasa" və "Özgə vaxtı" filmləri o illərin ən mükəmməl filmləri sırasındadır.***

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə Azərbaycan kinematoqrafiyasının inkişafında yeni bir dövrün başlanğıcı oldu. O, incəsənət növləri arasında kinonu çox yüksək qiymətləndirmiş, Azərbaycan kinematoqrafiya xadimlərinin xalqımızın keçmiş və müasir həyatından onlarca yüksək keyfiyyətli ekran əsərləri yaratdıqlarını çıxışlarında xüsusi vurğulamışdır. Hələ 1970-80-ci illərdə Dahi Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə kino sənətinin inkişafına, həmin sahədə çalışanlara qayğı və hörmətlə yanaşan Ulu Öndər Heydər Əliyev Azərbaycan Prezidenti seçildiyi gündən respublikanın kino sənəti xadimlərindən məhəbbətini əsirgəmədi. Heydər Əliyev Azərbaycan kino sənətinin dəyərli ənənələrini yaşadan tarixi mövzuda çəkilmiş bir sıra bədii filmləri yüksək qiymətləndirmişdir. Azərbaycan kino sənətinin tarixini mükəmməl bilən Ulu Öndər Heydər Əliyev, məhz bu ənənə üzərində kinematoqrafçıların fəaliyyət göstərməsini tövsiyə etmişdir. Bir əsrdən artıq tarixə malik olan Azərbaycan kinosunun keçdiyi yol hər kəsə yaxşı bəllidir. Belə ki, bu zəngin ənənəni qorumaq və inkişaf etdirmək sahəsində çox ciddi işlər görülməyə başladı.

Qeyd edək ki, Azərbaycan kino sənətinin tarixi 1898-ci il avqustun 2-dən başlayır. İlk filmlər fotoqraf və nasir A.M.Mişon tərəfindən çəkilmiş xronika süjetləri "Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi", "Qafqaz rəqsi" və bir bədii kinosüjetdən - "İlişdin"dən ibarətdir. 1915-ci ildə Qafqazda Pirone qardaşlarının açdığı səhmdar cəmiyyətləri tərəfindən Bakı, Tiflis və İrəvan şəhərlərində prokat kontorları yaradılmışdır. 1915-ci ildə adıçəkilən cəmiyyət neft sənayeçilərinin pulu ilə M.Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında eyniadlı ilk Azərbaycan bədii filminin çəkilişinə başladı. Təbiət mənzərələri Bakıda və ətraf kəndlərdə, pavilyonla bağlı səhnələr isə, Tiflisdə çəkilirdi. Filmdə Lütfəli bəy rolunu H.Ərəblinski oynamışdır. 1916-cı ildə Bakıda Ü.Hacıbəyovun "Arşın mal alan" operettası əsasında ilk Azərbaycan kinokomediyası çəkildi. 1919-cu ildə isə, "Azərbaycanın müstəqilliyinin ildönümü münasibətilə təntənə" adlı tammetrajlı film ekranlarda nümayiş etdirildi. 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) təsis olundu. AFKİ ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorların milliləşdirilməsi və birləşdirilməsi tədbirlərini həyata keçirirdi. AFKİ sonralar "Azdövlətkino" (1926-1930), "Azərkino" (1930-1933), "Azfilm" (1933), "Azdövlətsənayesi" (1934), "Azərfilm" (1935-1940), "Bakı kinostudiyası" (1941-1959) kimi adlar daşımışdır, 1961-ci ildən isə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası adlanır. XX əsrin 20-ci illərində Bakıda yerli operatorlar və xarici kino şirkətlərinin nümayəndələri tərəfindən şəhərin həyatından və neft mədənlərindən bəhs edən kinoxronikalar və sənədli filmlər çəkilirdi. 20-ci illərdə Azərbaycan kinosunda tarixi-sənədli filmlərlə yanaşı, tamaşaçıları gənc respublikanın təsərrüfat və mədəni həyatındakı nailiyyətləri ilə tanış edən "Azərbaycan ekranı" kinojurnalı buraxılmağa başlandı.

### İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ YÜKSƏK SƏVİYYƏLİ REJİSSOR İŞİ FİLMLƏRİMİZƏ GENİŞ ŞÖHRƏT GƏTİRDİ

İkinci Dünya müharibəsi illərində qəhrəman döyüşçülər Kamal Qasımov və Bəxtiyar Kərimova həsr olunmuş "Vətən oğlu" və "Bəxtiyar" kinonovellaları, M.F.Axundovun həyat və fəaliyyətinə dair "Səbuhi" vahid süjet xətti ilə bağlı üç kinonovelladan ibarət "Bir ailə", müharibə dövründə dənizçilərin göstərdikləri igidliklərə həsr olunmuş "Sualtı qayıq T-9" bədii filmləri çəkilmişdir. Cəsur partizan Mehdi Hüseynzadəyə həsr edilmiş "Uzaq sahillərdə" filmi isə Azərbaycanın, eləcə də, keçmiş sovet kinosunun nailiyyətlərindəndir. Dinamik, gərgin hadisələr, dəqiqliklə verilmiş xarakterlər, operator və rejissor işinin yüksək səviyyəsi filmə geniş şöhrət qazandırmışdır. İkinci Dünya müharibəsi illərində Azərbaycan sənədli kinosunun bir qrup rejissorları və operatorları cəbhə xəttinə gedərək, əsgərlərin qəhrəmanlığını lentə çəkirdilər. Həmin materiallar xüsusi buraxılışlar kimi əsgərlərə göstərilmək üçün müxtəlif cəbhələrə göndərildi. Bu dövrdə Azərbaycan xalqının arxa cəbhədəki əməyini əks etdirən kinojurnallar və kinooçerklər də yaradıldı. "Vətən uğrunda", "Qayğı", "Məktuba cavab", "Qardaş köməyi" və s. 1944-cü ildə "Bakı kinostudiyası" Moskva Sənədli Filmlər Studiyası ilə birgə Xəzər dənizçilərinin qəhrəmanlığından bəhs edən "Xəzərilər" tammetrajlı sənədli filmini çəkdi. 1945-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 25 illiyi ilə əlaqədar rejissor H.Seyidzadə "Əbədi odlar diyarı" tammetrajlı sənədli filmini yaratdı. Müharibədən sonrakı illərdə Azərbaycanda sovet hakimiyyətinin qələbəsinin 30 illiyi münasibətilə 1950-ci ildə "Sovet Azərbaycanı" rəngli tammetrajlı sənədli filmi yaradıldı. Film 1951-ci ildə Kann (Fransa) Beynəlxalq Kinofestivalının xüsusi mükafatına layiq görüldü.

### AZƏRBAYCAN KİNOSUNDA MUSİQİLİ KOMEDİYA JANRINA MEYİL

"Arşın mal alan" filmindən etibarən Azərbaycan kinosunda musiqili komediya janrına meyil güclənmişdi. "Görüş","Sevimli mahnı", "O olmasın, bu olsun", "Romeo mənim qonşumdur", "Əhməd haradadır?", "Ulduz", "Qaynana" və s. filmlərdə bu ənənə davam etdirilmişdir. XX əsrin 60-70-ci illəri kinematoqrafiyaya gənclərin böyük bir qrupunun gəlməsi ilə əlamətdar olmuşdur. Onların orta və yaşlı nəslə mənsub xadimlərlə əməkdaşlığı Azərbaycan kinosunun peşəkar səviyyəsinin yüksəlməsinə, milli özünəməxsusluq, ideya dərinliyi ilə fərqlənən filmlərin meydana gəlməsinə səbəb olmuşdur. Məsələn, "Bir cənub şəhərində" filminin mərkəzində yeniliklə köhnəliyin mübarizəsi və insanın köhnəlmiş adətlərin əsarətindən xilas olması prosesi durur. Bu dövrün filmlərində mənəvi-əxlaqi problemlər, müasir həyata müxtəlif baxışlar, insan xarakterlərinin təhlili, gənc nəslin formalaşması və s. mövzular başlıca yer tutur: "Uşaqlığın son gecəsi", "Gün keçdi", "Baş müsahibə", "Var olun, qızlar", "Həyat bizi sınayır", "Xoşbəxtlik qayğıları" və s. filmləri göstərmək olar. 70-ci illərin sonralarında və 80-ci illərdə Azərbaycan kinosunda mənəvi-əxlaqi problemlərə diqqət daha da artmışdır. Rejissor R.Ocaqovun filmlərində mürəkkəb psixoloji vəziyyətlər, əsl insan ləyaqəti ilə əlaqədar müşahidələr, xudbinlik, sərtlik, mərhəmətsizliyə qarşı etiraz kimi mövzulara meyil güclüdür. 1970-ci ildən "Azərbaycanfilm" kinostudiyasında "Mozalan" satirik kinojurnalının istehsalına başlanılmışdır. Kinojurnalda cəmiyyətin antipodları, gündəlik həyatda və təsərrüfatda rast gəlinən qüsur və nöqsanlar tənqid atəşinə tutulur. İkinci Dünya müharibəsinədək Azərbaycanda cizgi filmləri çəkilməsinə yalnız təşəbbüs göstərilmişdir. 1966-cı ildə "Azərbaycanfilm"də rəssam və rejissor-multiplikator kursları açılmışdır. Həmin dövrdə "Azərbaycanfilm" kinostudiyası səsli, genişekranlı, panoram və genişformatlı filmlərdə səsin stereofonik yazılışını təmin edən yeni kino avadanlığı ilə təchiz olunmuşdur.

Müasir həyatımızda Azərbaycan kino sənəti inkişaf dövrünü yaşayır. Son illərdə çəkilən filmlər sırasında Azərbaycanın Ümummilli Liderinin geniş və hərtərəfli fəaliyyətindən bəhs edən film N.Səfərovun ssenarisi əsasında operator O.Şixəliyevin çəkdiyi "Hamıya nümunə olan ömür yolu" filmidir. Bu əsərdə Ulu Öndər Heydər Əliyevin 1990-cı ildən sonrakı fəaliyyəti öz yığcam ekran ifadəsini tapmışdır.

Bununla yanaşı, ssenariçi və kinorejissor Vaqif Mustafayevin Ümummilli Lider Heydər Əliyevin fəaliyyətindən bəhs edən silsilə filmləri diqqəti cəlb edir. Xüsusən, onun çəkdiyi "Həqiqət anı" filmi tamaşaçıların marağına səbəb olmuşdur. Bundan başqa, Vaqif Mustafayev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş 12 serialı "Heydər Əliyev" filminin 9-nu çəkib. Onlardan "Əsl məhəbbət haqqında" film böyük uğur qazanıb. Bu film Moskvada keçirilən 4-cü Avrasiya Teleforumunda əsas mükafata və xüsusi mükafata layiq görülüb. "Bir həsədin tarixi" filmi 2002-ci ildə Yekaterinburqda keçirilən sənədli filmlər festivalında əsas mükafatlardan birini, Moskvada keçirilən 5-ci Avrasiya Teleforumunda "Qran-Pri" mükafatına layiq görülüb. Bu filmlər müxtəlif ölkələrdə böyük uğurla nümayiş etdirilib.

Bakıda məşhur dünya neft şirkətləri ilə bağlanmış saziş Vaqif Mustafayevin "Əsrin sazişi" filmində öz əksini tapmışdır.

Azərbaycanın kino sənətini davam etdirən müasir rejissorlardan Hüseyn Mehdiyevin, Cavanşir Mehdiyevin, Yavər Rzayevin, Nicat Feyzullayevin, Ayaz Salayevin, Eldar Quliyevin, Rasim Ocaqovun və Oqtay Mirqasımovun filmləri mövzu baxımından maraqlıdırlar.

Azərbaycan kino sənətinə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. Bu günlərdə Milli Kino Günü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan kino sənəti sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə, kino xadimlərinə Prezidentin fərdi təqaüdünün və fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

121-ci ildönümünü qeyd etdiyimiz Azərbaycan kino sənəti ötən müddətdə əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçmiş və xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynamışdır.

**ZÜMRÜD**

# Qarabağ ermənilәri Paşinyanın kürsüsünü laxladır

*Tərəflər arasında kəskin münaqişələr yaşanmaqdadır*

**Bəlli olduğu kimi, son vaxtlar qondarma "DQR" separatçıları ilə işğalçı Ermənistan hakimiyyəti arasında kəskin qarşıdurmalar yaşanmaqdadır. Məhz bu məsələ get-gedə daha da dərinləşir və baş nazir Nikol Paşinyanın kürsüsünü laxladır.**

Məsələ ilə bağlı politoloqların rəylərini öyrəndik. Onlar "SƏS" qəzetinə verdikləri açıqlamalarında bildirdilər ki, yaşanan qarşıdurmalar onlara yaxşı nə isə vəd etmir, o cümlədən, fakt budur ki, istər Ermənistan, istərsə də Qarabağ erməniləri arasında heç vaxt normal münasibətlər olmayacaq.

## Politoloq Elşad Mirbəşiroğlu: "Paşinyanla qondarma rejim arasında münasibətlər həndəsi silsilə ilə gərginləşəcəkdir"



"Məsələ burasındadır ki, Paşinyan özünü çox narahat hiss edir. Belə ki, Paşinyanın ən böyük arzularından biri də, ondan ibarətdir ki, qondarma "DQR"də ona loyal hakimiyyət onun üçün təhlükə yaratmayacaq, əksinə, ona bağlı hakimiyyət formalaşsın" deyə qeyd edən politoloq Elşad Mirbəşiroğluya görə, bu baxımdan, qondarma rejimin hazırkı hakimiyyəti ilə Paşinyan arasında, sözün əsl mənasında, soyuq müharibə getməkdədir: "Hətta bir müddət öncə, Paşinyan Şərq Tərəfdaşlığı Proqramının 10 illiyi münasibəti ilə təşkil edilmiş toplantıda Avropanın separatçı rejimdə demokratiyanın və insan hüquqlarının qorunması məsələsinin diqqətdə saxlanılmasını təmin edəcək əməkdaşlığın inkişaf etdirilməsini məsləhət görmüşdü. Yəni əslinə qalsa, burada Paşinyanın gizli niyyətləri özünü büruzə verir. Belə ki, Paşinyan düşünür ki, Avropa separatçı rejimlə əməkdaşlığını genişləndirərək, orada da demokratik dəyişikliklərə nail ola bilər. Yəni hakimiyyət dəyişikliyi şərtləndirilə bilər və əlavə olaraq qeyd etmək istəyirəm ki, bir necə gün öncə, Paşinyan Ermənistanda olan müxtəlif ölkələrin səfirləri ilə qapalı görüş keçirdi, çox güman ki, bu görüş çərçivəsində də separatçı rejimdəki, vəziyyət müzakirə oluna bilər".

"Hesab edirəm ki, qondarma rejimlə Paşinyan hakimiyyəti arasındakı ziddiyyətlər Ermənistanda böhranlı siyasi durumu daha da ağırlaşdıra bilər" deyə qeyd edən politoloqa görə, nəzərə almaq lazımdır ki, qondarma və separatçı rejim olan - Qarabağ klanı güclüdür və gələn il həmin rejim "parlament və prezident seçkilərini" keçirmək istəyir: "Bu baxımdan, "seçkilər" yaxınlaşdıqca, Paşinyanla qondarma rejim arasında münasibətlər həndəsi silsilə ilə gərginləşəcəkdir. Bu da, bütövlükdə, gələcəkdə Ermənistanın, onsuz da ağır olan həm siyasi, həm sosial, həm də iqtisadi vəziyyətini daha da ağırlaşdıracaqdır".

Elşad Mirbəşiroğlu əlavə edib ki, Paşinyan çox sürətlə elektoratını itirməkdədir və onun reytinqinin sürətlə aşağı düşəcəyi gözlənilən idi: "Belə ki, Paşinyan dövlət idarəçiliyində hər hansı bir təcrübəyə və səriştəyə malik deyil. Məsələnin digər tərəfi isə, ondan ibarətdir ki, Paşinyan Ermənistanda dövlət çevrilişi ərəfəsində, kütlə qarşısında verdiyi vədləri yerinə yetirə bilmir. Yenə də Ermənistanda işsizlik baş alıb gedir, sosial-iqtisadi planda çox-çox geriləmə müşahidə olunmaqdadır. Bu mənada, hesab edirəm ki, elektorat Paşinyanla bağlı gözləntilərini almadı və belə olan halda, Paşinyanla bağlı xəyal qırıqlığı təbii ki, ona olan etimadı da sürətlə zəifledir. Paşinyan siyasi səhnədən kifayət qədər tez uzaqlaşacaq. Bu da, Paşinyanın siyasi karyerasının sonu kimi yadda qalacaq. Çünki Ermənistan cəmiyyətində ilk əvvəl Paşinyanla bağlı bir eyforiya yaranmışdı və Paşinyan özü-öz səriştəsizliyi, bacarıqsızlığı ilə, eyni zamanda, Ermənistanda, Ermənistanın işğalçılıq siyasətini davam etdirməsindəki israrı ilə bunu darmadağın etdi".

## Politoloq Elxan Şahinoğlu: "Paşinyanın Qarabağ separatçılarına və İrəvandakı Qarabağ klanına təsiri çox zəifdir"



"Paşinyan hakimiyyətə gələndən sonra Dağlıq Qarabağ separatçıların liderləri arasında müəyyən münaqişə var" deyə qeyd edən politoloq Elxan Şahinoğluya görə, bu münaqişənin də zəmini ondan ibarətdir ki, həmin separatçılar Paşinyanın, deyil, Paşinyana rəqib olan Koçaryan və Sarkisyan cütlüyünün təsiri altındadırlar: "Paşinyan üçün əsas rəqib, məhz Koçaryan və Sarkisyandır. Ona görə də, Paşinyan istəyir ki, Qarabağ separatçıları ona tabe olsun. Amma onlar tabe olmurlar və zaman-zaman Paşinyan əleyhinə açıqlamalar verirlər. Məsələn, gələn il Qarabağda "prezident" seçkisidir. Paşinyan çox çalışır ki, gələn il "seçkidə" öz adamını yerləşdirsin, amma bu, çətin olacaqdır. Çünki Qarabağ separatçıları İrəvandakı Qarabağ klanı ilə bir yerdə hərəkət edirlər. Ona görə də, Paşinyanın onlara təsir etmək imkanı çox aşağıdır və belə vəziyyətdə, əlbəttə ki, münaqişə aralarında daha kəskin şəkildə davam edir".

Elxan Şahinoğlu hesab edir ki, hətta belə bir vəziyyətdə biz özümüzü aldatmamalıyıq: "İlanın qarasına da lənət, ağına da lənət... Yəni hətta aralarında bir nifaq varsa, hər ikisi Azərbaycan torpaqlarının işğalının davamını dəstəkləyirlər. Bizim mübarizəmiz də hər ikisinə qarşıdır. Bu baxımdan, düşünürəm ki, Paşinyanla Qarabağ separatçıları arasında münasibətlər yaxın müddətdə normallaşmayacaq. Amma bu, ona gətirib çıxarmayacaq ki, tutaq ki, Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin həllinə baxışı dəyişsin, yəni bu, baş verməyəcəkdir".

**GÜLYANƏ**

# Ermənistanın hüquq-mühafizə, ədliyyə və məhkəmə sistemi çöküb

*Ölkə mətbuatı "SOS" həyəcan siqnalı verir*




**Nikol Paşinyanın Ermənistana rəhbərlik etdiyi dövrdən başlayaraq, hazırkı zamana qədər bir çox sahələrdə uğursuzluqlara düçar olması, artıq erməni ictimai rəyinin ən çox danışdığı mövzulardandır. O cümlədən, erməni KİV-ləri də ard-arda gələn çatışmayan cəhətlərdən, problemlər və gözlənilən digər proseslərdən yazaraq, demək olar ki, "SOS" həyəcan siqnalı verirlər. Belə sahələrdən növbətiləri hüquq-mühafizə və məhkəmə sistemləridir. Artıq belə anlaşılır ki, işğalçı dövlətin bu sistemləri sıradan çıxmaqla yanaşı, yeniləşə bilmir.**

## "Past" qəzeti: "Hakimiyyətin sorosçu qanadı hakimlərin təmizliyini yoxlamaq məsələsində fəallıq göstərirlər"

Belə ki, ölkənin "Past" qəzetinin yazdığına görə, Ermənistanın məhkəmə və hüquq sferasında anlaşılmayan proseslər davam edir. "Bir neçə gün əvvəl, belə söz-söhbət gəzirdi ki, Nikol Paşinyan tərəfindən elan edilən vettinq prosesi Ali Məhkəmə Şurası tərəfindən aparılacaq" deyə yazan erməni nəşri qeyd edir ki, buna qədər isə, bu barədə danışarkən, vettinqin yaradılacaq xüsusi komissiyası tərəfindən aparılacağı deyilirdi.

Beləliklə, nəşrə mövzu ilə bağlı yeni məlumatlar daxil olub. "Bizim mənbələrin verdikləri məlumatlara görə, həqiqətdə vettinq adlandırılmayacaq bu proses, sadəcə, hakimlərin vicdanla xidmətlərini araşdıracaq, o cümlədən, beynəlxalq ekspertlər tərəfindən müxtəlif işlər aparılacaq: "Belə məlumatlar da var ki, bu mövzuda erməni ekspertlərinin sayı minimal olacaq, kimlər ki, orada təmsil olunacaqlarsa, onlar da müəyyən dairələrin nümayəndələridirlər".

Lakin adıçəkilən erməni nəşri daha maraqdoğurucu məqama toxunaraq, yazır ki, prosesdə, xüsusilə, Levon Ter-Petrosyanın adamları iştirak edəcəklər. Ancaq daha bir məqam həmin mövzuda daha çox fəal olanlardır. "Məlumatlara görə, bu mövzuda ən çox fəal olanlar Paşinyan hakimiyyətinin sorosçu qanadı olacaq. Onlar Ali Məhkəmə Şurası ilə bir neçə dəfə görüş keçiriblər" deyə "Past" yazıb.

Beləliklə, guya məhkəmə daxilində təmizlənmə işlərinin aparılması görüntüsü yaradılsa da, ermənilər bu dəfə də müəyyən dairələrdəki adamları vasitəsi ilə hüquq sisteminə yiyələnmək istədiklərini heç də gizlətmirlər.

## "Joxovurd": "İstintaq icrası xidmətində kadr talanı davam edir"

Ermənistanın digər nəşri "Joxovurd" isə yazır ki, ölkənin İstintaq İcrası Xidmətinin rəisi Artur Qoyunyan dörd müavinlərindən ikisini işdən azad etsə də, bu dövlət idarəsində kadr talanı davam edir.

Nəşr xatırladır ki, müavin kimi qalan Varqes Tsaxikyan Ədliyyə Nazirliyinin adıçəkilən xidmətində 2006-cı ildən çalışır və 15 iyun 2018-ci ildən həmin xidmətin rəis müavini vəzifəsinə seçilib. Ancaq bunun da səbəbləri var. SİTAT: "Adıçəkilən idarədən bildirilir ki, Tsaxikyanın öz işində qalması müəyyən köklərlə bağlıdır. Belə ki, o, baş nazirin müavini Tiqran Avinyanın xalası oğludur, ona görə də, digər həmkarları ilə birgə həmişə üstün mövqedə dayanır".

Bütün bunlar isə, sübut edir ki, Ermənistanda kimlərin hakimiyyətdə olmasından asılı olmayaraq, orada köhnə rejimin işartıları qalmaqda davam edir. Bu isə, söz yox ki, erməni ictimai rəyində narazılıqların artacağından xəbər verən faktordur.

**RÖVŞƏN RƏSULOV**

# Əfqanıstanda ən azı 60 "Taliban" silahlısı öldürülüb



**ABŞ-ın Əfqanıstandakı qoşun kontingenti və yerli hökumət təhlükəsizlik qüvvələri Qəndəhar əyalətinin Logar rayonunda aparılan hərbi əməliyyatlarda ən azı 60 "Taliban" silahlısını öldürüblər.**

Anadolu agentliyi xəbər verir ki, Logar rayonunun polis rəisi Şahpur Əhmədzayinin sözlərinə görə, birləşmiş qoşun hissələri iyulun 31-də başlayan və avqustun 1-də davam edən hərbi əməliyyatlarda Azara rayonu ərazisində 45 "Taliban" silahlısını öldürüb. Daha 15 silahlı isə ətraf rayonlarda zərərsizləşdirilib. O əlavə edib ki, silahlıların əksəriyyəti paytaxt Kabildən 100 km aralıda yerləşən bu ərazini ələ keçirmək üçün hücuma hazırlaşırmış.

Rəsmi məlumatda qeyd olunub ki, hərbi əməliyyatlar zamanı Əfqanıstanın təhlükəsizlik qüvvələrinin bir əsgəri həlak olub, səkkizi isə yaralanıb.

Qəndəhar əyalətində yerləşən ordu qərargahının sözçüsü Camal Nəsir bildirib ki, avqustun 1-də keçirilən hərbi əməliyyat zamanı 22 "Taliban" silahlısı öldürülüb, daha 11-i isə yaralanıb. O qeyd edib ki, silahlı qruplaşma Arğıstan rayonunda yerləşən ordu hissələrinə hücum edib. ABŞ əsgərlərinin də köməyi ilə keçirilən əks hücumda "Taliban" silahlıları ağır itkilər verərək dağlara çəkiliblər.

***Son günlər quduzlaşmış Ermənistan Azərbaycana qarşı təxribatlar törədir, danışıqlar prosesində Paşinyan sələflərinin ənənələrinə sadiq qalaraq status-kvonun saxlanılmasına, münaqişənin dondurulmasına çalışır. Ən gülünc məqam isə, erməni cəmiyyəti həmin bu sərsəm küçə "demokratını" hakimiyyət gətirərkən müəyyən real dəyişikliklərə ümid edirdi. Proseslər günbəgün göstərir ki, onlar yenə yanılırlar. Yeni hakimiyyət də əvvəlkilər kimi reallığı ört-basdır etməklə, hər hansı müsbət bir nəticə əldə etmək xülyası ilə fəaliyyət göstərir. Bu, həm daxili sosial-iqtisadi vəziyyətin ağır olaraq qalmasında, həm də Ermənistan-Azərbaycan münaqişəsinin həllində özünü göstərir. Ermənistan rəhbərliyi ənənəvi absurd mövqeyi ilə özünün durumunu daha da ağırlaşdırır, eyni zamanda, münaqişənin danışıqlar yolu ilə həllini mürəkkəbləşdirməkdə davam edir. Buna beynəlxalq ictimaiyyətin reaksiyası getdikcə artır. Bir sıra ekspertlər Ermənistanın işğal etdiyi Azərbaycan ərazisini tərk etməsindən başqa yolun olmadığını açıq vurğulasalar da, Paşinyan təxribatlara əl atmaqla ölkədə baş verən daxili vəziyyəti ört-basdır etməyi ən real çıxış yolu hesab edir. Və bu sadə həqiqəti dərk etməyə erməni siyasi şüuru qabil deyil.***

# Azərbaycan diplomatiyası qarşısında Paşinyanın məğlub iqtidarı

## *Absurd iddia: ziddiyyətlər məngənəsində sıxılan Nikolun röyası*



### Faktların təhrifi: kazimirovların zavallı durumu və reallıqlar

Qeyd edək ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll edilməsi perspektivi ilə bağlı ekspertlərin analizləri bu gün də davam edir. Nikol Paşinyanın Dağlıq Qarabağdakı terrorçu-separatçıların da müzakirələrdə müstəqil tərəf kimi iştirak etmələri məsələsini gündəmə gətirməsi ilə bir sıra çətinliklər meydana çıxmışdı. Ancaq Azərbaycan rəhbərliyinin prinsipial və qətiyyətli, beynəlxalq hüquq normalarına və beynəlxalq təşkilatların sənədlərinə əsaslanan mövqeyi sayəsində Ermənistanın bu süni hoqqası da baş tutmadı. Təbii ki, bundan Ermənistanın yeni hökuməti çox pis vəziyyətə düşdü. Bu vəziyyətdən çıxmaq üçün də müəyyən manevrlər etməkdədir.

İndi maraqlı bir mərhələ başlayıb. Konkret olaraq, beynəlxalq ictimaiyyət N.Paşinyanın bu absurd, qərəzli, birtərəfli, Ermənistanın təcavüzkarlığına haqq qazandırmağa xidmət edən "təklifini" qiymətləndirməkdədir. Rusiyada, Avropada, ABŞ-da ekspertlər və siyasətçilər həmin mövzu ilə bağlı fikirlərini ifadə edirlər. Onların hamısını bir məqam birləşdirir: danışıqların formatını dəyişmək mümkün deyildir!

Ancaq təəccüblüdür ki, bəzi "siyasətçilər" və "ekspertlər" təcavüzkarın bu təklifinə haqq qazandırmağa cəhd edirlər. O cümlədən, ATƏT-in Minsk Qrupunun keçmiş həmsədrlərindən olan Vladimir Kazimirov həm erməni işğalına haqq qazandırmağa çalışır, həm də Dağlıq Qarabağdakı xunta rejiminin danışıqlarda iştirak etməsinin zəruri olduğu haqqında sərsəm tezislər irəli sürür. Bu zaman, o, hətta adi diplomatik etiketdən belə kənara çıxaraq, Azərbaycanın işğala qarşı savaş aparmasını "aqressiya" adlandırmağa cəhd edir.

Bununla yanaşı, başqa bir maraqlı fakt da N.Paşinyanın Rusiya mətbuatına Ermənistan-Rusiya münasibətləri ilə bağlı verdiyi müsahibədə Ermənistan-Azərbaycan münaqişəsinə toxunaraq, Dağlıq Qarabağ ermənilərinin danışıqlarda iştirakı məsələsini yenə də qabartmağa çalışmasıdır. Belə ikiüzlülük və yalançılıqla ən kiçik münaqişəni belə həll etmək mümkün deyil. Bütün dünya bilir ki, Ermənistanın havadarlarının birbaşa yardımı ilə Azərbaycan torpaqlarını işğal edib və münaqişə həmin məqamdan başlayıb. Bu səbəbdən, onun həllinə işğalçıların zəbt etdikləri torpaqlardan qeyd-şərtsiz çəkilmələri ilə başlamaq olar. Çünki reallıqda Ermənistana iri sərmayə qoyan yoxdur və bu kvaziölkənin heç bir dəyərli proyekti yoxdur. Təbii ki, belə bir vəziyyət insanlardan indiki hakimiyyətə inamsızlığı artırır. Bu səbəbdən də, N.Paşinyan iqtisadiyyatda edə bilmədiyi populizmi münaqişə ilə bağlı etməyə cəhd göstərir.

Buradan sadə bir məntiqi nəticə alınır: Ermənistanın problemin həlli ilə bağlı təsəvvürləri ilə reallıq arasında dərin bir ziddiyyət mövcuddur. Belə ki, nə edirsən et, reallıq budur: təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam!

### Süni yaranan Ermənistanın siyasəti də süni faktorlara dayanır

Bu, real faktordur. Ermənistan necə süni yaradılıbsa, onun siyasəti də süni faktorlara dayanır. Əslində, burada qeyri-adi bir şey də yoxdur. Əvvəlki liderlər kimi, N.Paşinyan da savadsız düşüncəyə malikdir. Guya Ermənistan küçə hərəkatı ilə siyasi, mənəvi, ideoloji, diplomatik və mədəni simasını qəfil dəyişib. Ekspertlərin sözlərinə görə, son illərə kimi, Rusiyanın vassalı olan kütlə birdən demokratiyanın və sivilizasiyanın aparıcı mövqeyinə çıxıb. Deməli, ekspert dairələrinin də dəridən-qabıqdan çıxaraq, Paşinyan hakimiyyətini tərif etmələri reallıqda Ermənistanın yeni vassal olmaq xəttini təbliğ etməkdən başqa bir şey deyildir.

Qabil Hüseynli: "Paşinyan yaxın anlarda erməni xalqının əli ilə də hakimiyyət kürsüsünə gətirildiyi kimi, o yolla da küçəyə atılacaq: "Belə bir misal var, "meymunun boğazına su çatanda, balasını ayağının altına alar". Görünən odur ki, aclıq və səfalət içində çırpınan erməni xalqı elə bir vəziyyətə çatdı ki, kütləvi şəkildə küçələrə axışaraq, hakimiyyətə qarşı aksiyaların keçirilməsi də bunu bir daha sübut edir. Paşinyan Qarabağ separatçılarından və ölkəsindəki Qarabağ klanından qorxduğu üçün hər dəfə belə edir. Separatçılar Paşinyana etibar etmirlər. Ona görə də, atəşkəsi zaman-zaman pozurlar. Proses elə il ərzində belə də davam edəcək".

### Paşinyan nə istəyir: sülh, yoxsa müharibə?

Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağ münaqişəsinə dair mövqeyinin ondan əvvəlki hakimiyyətlərin yürütdüyü siyasətlə müqayisə edilməsini istəmir. O, son vaxtlar apardığı kadr islahatları və Azərbaycan Prezidenti ilə intensiv qeyri-rəsmi görüşləri fonunda tez-tez səslənən "sülh əvəzinə ərazilər" tezisi ilə bağlı erməni cəmiyyətində və ekspert dairələrində yaranan narahatlığa münasibət bildirərkən belə deyib.

Erməni politoloqları da bildirirlər ki, ölkədə yaranmış kritik vəziyyətə səbəb Paşinyanı sərsəm danışmağa sövq edir. Ümumiyyətlə, real vəziyyəti təhlil edən ekspertlərin, demək olar, hamısının mövqeyi bundan ibarətdir ki, Ermənistanın bir dövlət olaraq mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Azərbaycan torpaqlarını işğal altında saxlayıb, qonşu dövlətlərə ərazi iddiası irəli sürmək isə erməni dövlətinin gələcəyini təhlükəyə salır. Bu baxımdan, Ermənistanda vəziyyətin düzəlməsinin əsas şərtlərindən biri və ən başlıcası Yerevanın öz qoşunlarını Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarmasıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir.

### "Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq"

Azərbaycan Prezidenti çıxışlarında dəfələrlə bildirib ki, xarici siyasətimizdə ərazi bütövlüyümüzün təmin edilməsi prioritet istiqamətdir. Və münaqişənin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirib və beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan edib: "Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi və hüquqi torpağı ondan ayrılsın. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir. Azərbaycan bütün dünya tərəfindən tanınan öz ərazi bütövlüyünü bərpa edəcək".

Qeyd edək ki, dövlət başçısı dəfələrlə xəbərdarlığını edib və bildirib ki, bu şəraitdə Paşinyan hökuməti cəbhə təxribatlarına getməkdə davam edərsə, onda Azərbaycan daha sərt tədbirlər görməli olacaq. Bir məqamı dönə-dönə vurğulamaq lazımdır ki, tarixi aprel qələbələrindən sonra Ermənistan hökumətindən fərqli olaraq, bu ölkənin cəmiyyəti hadisələrin qeyd olunan səpkidə inkişafından ciddi narahatdır. Xüsusilə, əsgər analarının narahatlığı və növbəti dəfə aprel döyüşlərinin təkrarlanması qorxusu erməni cəmiyyətində Paşinyana qarşı yeni etirazlara rəvac verir. Çünki bütün erməni ictimaiyyəti Azərbaycan Ordusunun qüdrətinə yaxından bələddir.

### Ermənistanın xilası Azərbaycanın əlindədir

Ötən dövr, çox aydın şəkildə göstərir ki, Azərbaycanla normal münasibətlər yaratmadan Ermənistanın bir dövlət olaraq, mövcudluğunu davam etdirməsi mümkün deyil. Bunu Ermənistanın istər əvvəlki, istərsə də bugünkü dövlət başçısı yaxşı anlayır.

Bir sözlə, acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan, necə deyərlər, Ermənistanı iflasdan-iflasa sürükləməkdədir. Nə qədər ki, Ermənistan Azərbayanın işğal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi, siyasi məhrumiyyətlərə və məşəqqətlərə düçar olacaq.

***A.SƏMƏDOVA***

# Aksiyaçılar Yerevan merinə sarı vərəqə göstərib

***İrəvan meriyası qarşısında etiraz aksiyası keçirilir. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Daşnaktsütun partiyası və "Nikol Ağbalian" Tələbə Birliyi üzvləri İrəvan meriyasının qarşısında birgə etiraz aksiyası keçirirlər.***

"Bu gün İrəvan merinə və hakimiyyətdə olan partiyaya verdikləri vədlər barədə xatırlatmaq istəyirik.




Bələdiyyə başçısı öz komandası ilə İrəvanda ağac əkmək, zibil yığımını daha yaxşı səviyyədə təşkil etmək, nəqliyyat problemini həll etmək və bir sıra digər məsələləri həll etmək üçün söz vermişdi. Lakin son 9-10 ay ərzində İrəvan sakinlərinin həyatında heç bir müsbət dəyişiklik olmayıb", deyə aksiya təşkilatçılarından biri bildirib.

Aksiya təşkilatçıları İrəvan meri Hayk Marutyana onlara verdiyi vədləri xatırlamalı olduğunu, həmçinin ciddi olmağa çağırdıqlarını söyləyiblər.

"Bugünkü aksiya may ayında Azadlıq meydanında keçirilən aksiyanın davamıdır. İrəvan merinə sarı vərəqə göstəririk. Bu ilk sarı vərəqə, xəbərdarlıq və ciddilik çağırışıdır. Biz münasibətlərin dəyişəcəyini gözləyirik. Hamımız İrəvan sakinləriyik və İrəvanın fiasko ilə üzləşməsini istəmirik", deyə aksiya iştirakçılarından biri fikrini bildirib.

***İnam Hacıyev***

# Qulu Məhərrəmli - qul psixologiyalı ingilis bayrağı

**_Təəssüf ki, bu gün Azərbaycanda özlərini "ziyalı" adlandırıb bu ad altında ölkənin bu kimi möhtərəm zümrəsinin adını batırmağa çalışanlar mövcud olmaqdadır. Təbii ki, belə "ziyalıların" ortada var-gəl etmələri, ictimai-siyasi proseslərə öz təbirlərincə münasibət bildirmələri elə-belə deyil, bunun müəyyən tərəfləri var. Daha dəqiqi isə, maraqları var. Məsələn, Qulu Məhərrəmli kimi..._**



Bu dırnaqarası ziyalının zaman-zaman ölkəmizin dövlətçilik maraqlarına qarşı çıxış etməsi faktoru dəfələrlə üzə çıxıb. İndi də, "müxalifət mediası" cinahında tez-tez görünən Q.Məhərrəmli, maraqlarının təmin edilməyəcəyi təqdirdə, dərhal sosial şəbəkədə yer alır, hətta o dərəcədə yer alır ki, özünün də iddia etdiyi jurnalist adını ən ağır tərzdə təhqir edir. Əslində isə, bu təhqir, yəni təhqir ifadələri elə onun özünə bilavasitə aiddir. Axı atalarımız deyiblər - it hürər, karvan keçər...

Vaxtilə Azərbaycan Dövlət Televiziyasında mövcud iqtidarı dəstəklədiyini dəfələrlə bəyan edən Q.Məhərrəmli, məlum səbəblərə görə oradan çıxarılan kimi, özünü əks-düşərgədə tapmış oldu. Buna isə, ilk növbədə, ƏQİDƏSİZLİK deyilir! Əqidəsizdən isə, nə desən, hansı xəyanəti desən gözləmək olar. Biz, media əməkdaşları olaraq, bu xəyanəti onun təhqiredici davranışından növbəti dəfə gördük.

### Qulu Məhərrəmliyə AzTV-nin sədri postunu kim vəd vermişdi?

Məsələn, elə də uzağa getməyərək, Q.Məhərrəmlinin 2013-cü ilin prezident seçkiləri zamanı davranışlarını xatırlayaq. Dağıdıcı müxalifətin mədhiyyəçisi kimi tanınan Q.Məhərrəmli həmin vaxt "Milli Şura"nın "simasına" çevrilərək, qurumun o zamankı sədri Rüstəm İbrahimbəyovun sözcüsünə çevrilmişdi. Ona bu vəzifəni AXCP sədri Əli Kərimli təqdim etmişdi. Həmişə "adına layiq" iş görən, mədhiyyələri ilə ürəkləri bulandıran, qul psixologiyalı, ingilis bayrağı kimi, hər gün bir tərəfə əsən, pul görəndə, hətta cəmiyyət arasında belə şalvarını çıxarmağa hazır olan Q. Məhərrəmli adlı subyekt Moskvadan göndərilən paraların qarşısında tab gətirməyib, bütün vicdanını hərraca çıxarmışdı. Nədir ki, həmin vaxtlar R. İbrahimbəyov Q.Məhərrəmliyə "hakimiyyətə yiyələnən kimi" Az TV-nin sədri postunu verəcəkmiş. Hətta daha dəqiq və səhih informasiya olsun deyə, xatırlatmaq olar ki, R.İbrahimbəyov xaricdə otura-otura, papkadaşıyan Eldar Namazov vasitəsilə Q.Məhərrəmliyə çatdırıb ki, hakimiyyətə gələcəyi andaca birinci Sərəncamı Q.Məhərrəmlinin Az TV-nin sədri təyin etməsi ilə bağlı olacaq...

Bu, baş vermədi və Q.Məhərrəmlinin arzusu qaldı ürəyində. Fəqət, bundan sonra da, o, alınmayan planlarını başqa istiqamətlərdə reallaşdırmağa başladı - erməni siyasətinə dəstək verməklə, qısa desək, milli xainlik və gavurçuluqla!

### Rauf Mirqədirov vətənini satarkən, Qulu Məhərrəmli onun xəyanət ticarətinə ortaq olub

Daha bir fakta diqqət yetirək, Q.Məhərrəmli guya jurnalist təəssübkeşliyi göstərərək, Türkiyədə Azərbaycanın maraqlarını xarici kəşfiyyata satmaqla məşğul olan Rauf Mirqədirovun alovlu müdafiəçisinə çevrilmişdi. Gah "Meydan" TV-də, "Azadlıq" qəzetində, gah da Qənimət Zahidin "Azərbaycan saatı" adlı erməni lobbisinin və bu lobbiyə yaxınlığı ilə seçilən Soros Fondunun maliyyələşdirdiyi verlişlərinə çıxan adıçəkilən "təəssübkeş", nəticədə, müəyyən istəyinə nail olmağı bacardı. Ona bu işlərinə görə müəyyən maliyyə axınları gəlməyə başladı. Çünki ona sifarişlər verilmişdi. Sosial şəbəkədə fəal olan Q.Məhərrəmli görün dövlətə xəyanət üstündə həbs edilən Mirqədirov barədə nə yazmışdı, bir daha xatırlayaq. SİTAT: "Politoloji təhlilləri və tənqidi yazıları ilə uzun illər jurnalistikamızın üzünü ağ eləmiş (?!-R.N.), geniş oxucu məhəbbəti qazanmış (??!!-R.N.) istedadlı həmkarım Rauf Mirqədirovu 6 il azadlıqdan məhrum etmək barədə məhkəmənin çıxardığı hökm çox üzücüdür..."

Hələ bu harasıdır, Q.Məhərrəmli, üstəlik, əlavə etmişdi ki, guya R.Mirqədirovu sifarişlə həbs ediblər və o, vətəninin sabahını işıqlı görmək istəyirmiş. Həqiqətən də, qeyri-ciddi olan bu cür ifadələr insanı düşünməyə vadar edir. Məsələn, düşünürsən ki, bir zamanlar R.Mirqədirov açıq-aşkar dövlətin maraqlarını satmaqla məşğul olub, Q.Məhərrəmli kimi "təəssübkeşlər" isə, ona xərclənən pullardan iştahaya gələrək, vətən xainini "vətəninin gələcəyini işıqlı görmək istəyən adam" kimi təqdim edib. Bu cür absurd və sərsəm iddiaları isə, həqiqətən də, məhz Q. Məhərrəmli, eləcə də, təmsil olunduğu çevrəsindən gözləmək olar! Çünki R.Mirqədirov, artıq azadlıqdadır və indi də "Media Klubu" adlı sifarişli dərnək vasitəsi ilə vətənini satır, Q.Məhərrəmli də onun ticarətinə ortaqdır - Arif Əliyev, Elçin Şıxlı, Elmidar Əliyev, Ələsgər Məmmədli, Əvəz Zeynallı, Rauf Mirqədirov, Mehman Əliyev, Zahir Əzəmət kimi media dəllalları və reketləri ilə bir yerdə!

Bu ünsürlərin hər birinin adları arxasında kifayət qədər ürəkbulandırıcı olaylar, əməllər dayanmaqdadır və bu barədə ayrı-ayrılıqda qeydlərimizi davam etdirəcəyik.

### Qulu Məhərrəmli Əkrəm Əylisli ilə erməni bulağından su içibmi?

Yəqin ki, hörmətli oxucularımız Əkrəm Əylislinin "Daş yuxular" adlı bədnam, erməni dəyirmanına su tökən, milli kimliyimizi təhqir edən romanı barədə hələ çox danışacaqlar. Gələcək nəsillər Əylisli kimi qanı erməni, toxumu erməniçiliyə bulaşmış "yazıçını", haqlı olaraq, "asıbkəsəcək" və ittiham edəcək. Ancaq yenə də xatırlatmağın yeridir ki, həmin ərəfələrdə Ə.Əylisli Azərbaycan xalqı tərəfindən kəskin ittiham atəşinə tutulmuşdusa, Q.Məhərrəmli bu ünsürün ilk müdafiəçilərindən birinə çevrilmişdi. Bunu, ona görə xatırladıram ki, Q.Məhərrəmli elə o zamandan bir erməni tulası ilə eyni yaldan su içməyi özünə sığışdıran ünsürlərdəndir! Yaxud belə bir sual hələ də qüvvədə qalır: Məgər Ə.Əylisliyə "Daş yuxular"dan sonra "görkəmli Azərbaycan yazıçısı" sözünü demək başqa hansı mənanı verə bilərdi ki?!

### Bəs Qulu Məhərrəmli kimdir?

Q.Məhərrəmli Ə.Əylislinin "Daş yuxular" romanı ilə bağlı onu haqlı sayanda, iddia etmişdi ki, ona qarşı (Əylisliyə) edilən davranışlar bədii əsərə etiraz çərçivəsini aşaraq, qisas kampaniyasına və tragikomik şouya çevrilir (??!!-R.N.).

Burada Q.Məhərrəmli Əylislini ittiham edənləri, necə deyərlər, açıq-aşkar təhqir edib və haqlı ittihamları irəli sürən sadə xalqı şou göstərməkdə suçlamışdı. İndi də bütöv bir jurnalist camеəsinə diş qıcıyır həmin bu Q.Məhərrəmli - azğınlıqla, quduzluqla, vəhşicəsinə!

Bu gün sual olunsa ki, Q.Məhərrəmli kimdir? Bu sualın cavabı çox bəsitdir - Vətən xainlərinin müdafiəçisi və onların qayğısını ora-bura hürərək, çəkən simasız!

**_Rövşən NURƏDDİNOĞLU_**

SİYASİ RAKURS

# Mediada Arif Əliyev "canfəşanlığı"

## _Yaxud Sorosun adamı yenə də şou-makler rolunda_

**_Son vaxtlar Azərbaycan mətbuatında özlərini cəmiyyətə "kapitan" kimi sırımağa çalışan, lakin medianın yefreytorları belə olan bilməyən şəxslərin növbəti dəfə suyu bulandırmaq cəhdləri üzə çıxıb. Əslində, hər kəsin bildiyi kimi, "Media Klubu" adlandırılan və bilavasitə dünyanın baş subulandıranı Corc Sorosun sifarişləri ilə çörək yeyən bu ünsürlərin hər birinin çirkin əməlləri barədə çoxsaylı faktlara istinad etmək olar. Lakin daha yaxşı olardı ki, beləəri barədə ayrı-ayrılıqda yazılsın, yəni bütün isbatlı və arqumentli təfsilatları ilə..._**



### Bu adamın reallıqda özünü beş-on dollara satılan biri olduğunu hər kəs yaxşı bilir və xatırlayır

Beləliklə, ilk beləsi ölkə mediasının qrantyeyəni kimi tanınan, özünü "jurnalistikanın təəssübkeşi" kimi təqdim edən, daha çox "canfəşanlıq" göstərən Arif Əliyevdir. Bəs daha kimdir A.Əliyev..? A.Əliyev, ilk növbədə, Azərbaycan mediasında baş verən bütün müsbət hallara - ümumiyyətlə, KİVDF, Mətbuat Şurası və s. bu kimi mediaya bağlı qurumlara qarşı qısqırdılan əsas soros-çu olmaqla yanaşı, həm də şou-maklerdir. Dəqiq desək, onun sözügedən məsələlərdə yan-yörəsindəkilərdən daha öndə olması danılmaz faktdır. Misal üçün, bir müddət əvvəl KİVDF-nin print-media ilə bağlı qəbul etdiyi məlum qərarına qarşı siyasiləşmiş fikirlər irəli sürmək, bununla da, Azərbaycan dövlətinin media siyasətini hədəfə almaq A.Əliyevin Soros dayısından aldığı sonuncu tapşırıqlarından biridir.

Ölkə mətbuatının daha səmərəli və keyfiyyətli standartlara keçid etməsi kimi məsələlərdə özünü "mətbuat qiyamçısı" və "haqq-ədalət carçısı" prinsipi ilə ictimai rəyə zorla dürtüşdürən A.Əliyev, görünür, özünün keçmişini ya unudur, ya da mediada şou-maklerlik edərək, haqqında formalaşmış fikirləri yayındırmağa çalışır. Misal üçün, bu adamın reallıqda özünü beş-on dollara satılan biri olduğunu hər kəs yaxşı bilir və xatırlayır. Xüsusilə, yazılı mətbuatda illərdir fəaliyyət göstərən jurnalistika adamları hər şeyin necə, nə cür olduğunu daha müfəssəl bilirlər. Ona görə də, yenidən qayıtmalı oluruq Sorosa...

Məlumdur ki, Corc Soros "mətbuata yardım" adı ilə müxtəlif ölkələrdə öz əlaltılarına yüz minlərlə vəsait göndərən bir kəsdir. A.Əliyev də bunu yaxşı bildiyi üçün, son illərdə qərbli daydayısının balağından möhkəm yapışıb. Əgər bu gün "Media Klubu" adlanan bir şər-böhtan dağarcığı fəaliyyət göstərirsə və onun başında dayanan əsas adamlardan biri də, məhz A.Əliyevdirsə, deməli, hər şey tam çılpaqlığı ilə aydın olur. Guya o və yan-yörəsindəki "media yefreytorları" bu pullarla Azərbaycanda mətbuatın inkişafına dəstək olurlar və s. Ancaq fakt budur ki, istər A.Əliyev, istərsə də digər onun kimilər yüz minlərlə vəsaiti mənimsəyirlər və öz şəxsi vəsaitləri kimi aralarında bölüşdürdülər. Göründüyü kimi, həmin qrantları bölüşdürənlər yenə də bir aradadırlar və mətbuatımızın inkişafına doğru atılan hər addıma qarşı, necə deyərlər, "qulp" qoymağa cəhdlər göstərirlər.

Yaxud A.Əliyev, həqiqətən də, Soros daydayısından "mətbuatın inkişafı" üçün qrantlar alırsa, buraxdıqları qəzetlər, açdıqları sayt və portalları, yayım firmaları haradadır? Əlbəttə ki, ciblərində! A.Əliyevə havayı yerə qrantyeyən adını qoymayıblar ki..!

### Arif Əliyev AXC hakimiyyəti dövründə də, indiki kimi bənzər mənfi imicə, xəyanətkarlıq simvolikasına malik olub

Beləliklə, həm də bu nəticəyə gələ bilərik ki, A.Əliyevin özünü "aparıcı media simalarından biri kimi" təqdim etməsi onun bugünkü fəaliyyəti ilə yox, əsasən, keçmiş fəaliyyəti ilə daha çox bağlı ola bilər. Çünki faktlar mövcuddur ki, Arif Əliyev AXC hakimiyyəti dövründə də, indiki kimi bənzər mənfi imicə, xəyanətkarlıq simvolikasına malik olub. Bunu, elə həmin dövrlərdə mətbuatda olan, bu gün də mediada təmsil olunan sayt və qəzet baş redaktorları da təsdiq edə bilərlər. Təsdiq edə bilərlər ki, bu fərd, pul-para üçün daim mənsub olduğu media cameəsini hər an satmağa hazırdır, necə ki, indinin özündə də satır, satılır...

### Maraqlıdır, hanı həmin o milyon dollarlıq qrantlar, "cənab" Arif Əliyev?

Burada yenə də uzağa getməyərək, A.Əliyevin hələ də başı üzərində mövcud olan sualı cavablandıra bilməməsi faktını xatırlatmağa ehtiyac yaranır. Onun media rəhbəri kimi, 11 il öncə, xaricdən aldığı 1 milyon ABŞ dolları həcmindəki maliyyə yardımı hansı tərəfə "uçdu"? Bəli, söhbət yenə də "Gün Səhər" adlı qəzetdən və həmin qəzetə xərclənən pullardan gedir və bu gün heç bir media adamı deyə bilməz ki, adi, bir neçə səhifəlik qəzetin bir illik çapına 1 milyon dollar xərcləmək lazımdır. Halbuki 1 milyon dollara, hələ 11 il öncə, bir neçə qəzet və çap müəssisəsi açmaq, uzunmüddətli fəaliyyət göstərmək olardı. A.Əliyevin "Gün Səhər"i isə, vur-tut bir neçə ay işıq üzü gördü və...

Və bağlanaraq tarixin arxivinə qovuşdu. Maraqlıdır, hanı həmin o milyon dollarlıq qrantlar, "cənab" A.Əliyev? Əlbəttə ki, banklarda faiz toplamaqda, villa və bahalı avtomobillərdə, o cümlədən, kefdə-damaqda yatır həmin qrantın kökü. Bəlkə elə deyil? Elə deyilsə, niyə bu sualın cavabı hələ də verilməmiş qalır?!

Yəqin ki, növbəti yazımızda daha müfəssəl məlumatlarımızla bu sualı inkişaf etdirəcəyik, ta A.Əliyevin "günahkar keçi" - qapazaltı qismində yalvarış etiraflarını edənə qədər...

**_Rövşən NURƏDDİNOĞLU_**

# Mirmahmud Mirəlioğlu Əli Kərimliyə niyə nifrət edir?

*KXCP sədri AXCP sədrinə qarşı kəskin ittihamlarını davam etdirir*

***Əli Kərimlinin hələ də özünü "Əbülfəz Elçibəyin davamçısı", "təmiz siyasətçi" kimi təqdim etməsi, vaxtilə onunla bir cəbhədə olmuş şəxslərin kəskin hiddətinə səbəb olmaqda davam edir. Xüsusilə, illərin düşmənlərinə çevrilmiş şəxslər arasında ən ağır ittihamlar səslənir, tərəflər bir-birlərinə müxtəlif vaxtlarda cərəyan edən hadisələri xatırladırlar. Misal üçün, KXCP sədri Mirmahmud Mirəlioğlu Ə.Kərimlinin özünü "həqiqi Elçibəyçi" kimi müxalifət cameəsinə sırımasına özünəməxsus tərzdə cavab verib. M.Mirəlioğlu, bir müddət əvvəl, Ə.Kərimlinin mərhum AXC liderinin məzarı önündəki təkəbbürlü çıxışını dolayı yolla "artistlik" adlandırıb.***

**KXCP sədri: "Bu gün bu məsələni gündəmə gətirmək adamın özünün şəxsi narahatlığından başqa bir şey deyil"**

"Məzar önündə çıxış edərkən, bu cür etiraflarda bulunmaq, belə məsələləri dilə gətirmək və səsləndirmək, kimin deməsindən asılı olmayaraq, həmin adamların narahatlığından xəbər verir" deyən KXCP sədri, həmçinin, bildirib ki, Elçibəyin hakimiyyəti zamanında, Elçibəyin partiya sədrliyi zamanında onun əleyhinə olanlar məzarı önündə belə bir fikirləri dilə gətirirlərsə, bu, sadəcə olaraq, eşidənləri və orada olanları aldatmaqdan başqa bir şey deyil: "O məzarın qarşısında o hansı hallar keçirib, mən hansı hallar keçirmişəm, o məzarda dəfn günündən 40 mərasiminə qədər nələr olub, bunları hər kəs bilir. O məzar başında il mərasimində nələr olubsa, onu da hamı bilir və bu, tarixin də yaddaşındadır. Bütün media da bunu yazıb. Bu gün bu məsələni gündəmə gətirmək, adamın özünün şəxsi narahatlığından başqa bir şey deyil və dediyim kimi, dinləyiciləri aldatmaqdır".

**Mirmahmud Mirəlioğlu: "Tanımayanların**



**qarşısında belə böyük-böyük danışıb, özündən müştəbeh olmaq lazım deyil"**

Klassik cəbhəçilərin sədri bəzi xatırlatmalar edərək, onu da bildirib ki, həm Elçibəyin doğum günündə, həm də digər günlərdə müxtəlif adamlar, guya onu daha yaxından tanıdıqlarını göstərmək üçün açıqlama və s. kimi çıxışlar edirlər və bu 26-27 ildir ki, bu, belə davam edir: "Bu müddət ərzində, çox sular axıb. Çox adamlar bu haqda açıqlamalar verib. Amma Allaha, Elçibəyə nə cavab verəcəklər? Bunu mütləq nəzərə almalıdırlar. Bu gün gənclərin qarşısında, tanımayanların qarşısında danışanda, bir az ehtiyatlı olmaq lazımdır. Allahı unutmaq lazım deyil, elədiklərinizi unutmaq lazım deyil. Xəlvətdə öyünməyə son vermək lazımdır. Yəni tanımayanların qarşısında belə böyük-böyük danışıb, özündən müştəbeh olmaq lazım deyil..."

**Daha bir xatırlatma: "Elçibəyin "əlimi çəkərəm sənin kürəyindən, səni məhv edərlər" sözləri də mənə deyilməyib"**

Daha bir maraqlı məqam M.Mirəlioğlunun Ə.Elçibəyə xəyanət etdiyini xatırlatması, xüsusilə, "Yurd" qruplaşması yaradaraq, ona qarşı təhqiredici addımlar atmasıdır: "Bəyi uzaqlaşdırmaq mümkün deyildi. Amma onlar özləri uzaqlaşıb, gedib "Yurd" partiyasını yaratmaq istəyirdilər. 1998-ci ildə yanvar ayının 30-31-də, AXCP-nin Elçibəyin iştirak elədiyi sonuncu qurultayından sonra, artıq bu istiqamətdə işlər görülürdü. Bunların da hamısı tarixdə var. "Xalq Cəbhəsinin Yurd Həqiqətləri" adlı kitabda da bu haqda var. May ayında onlar "Yurd" partiyasını yaradacaqdılar. Məsləhət oldu ki, ayrılmasınlar, burda qalmaqları yaxşıdır... Elçibəyin "əlimi çəkərəm sənin kürəyindən, səni məhv edərlər" sözləri də mənə deyilməyib. Bütün bu məsələlərin hamısı tarixdə var. Yəni belə yalanlar danışmaq ayıbdır, xüsusilə də, məzar başında".

KXCP sədri, hətta Ə.Kərimlinin "Yurd" qruplaşmasının maliyyə qaynağı barədə də danışaraq, deyib ki, həmin vaxtlar mobil hücumlar üçün yığılan pullar "Demokratiyanın İnkişaf Fondu" adlı qurumdan ödənilirdi.

Beləliklə, bu gün Ə.Kərimlinin özünü "vicdanlı Elçibəyçi" kimi təqdim etməsi, əsasən, M.Mirəlioğlunu sərt şəkildə qıcıqlandırıb və o, istisna etməyib ki, çox yaxın zamanlarda elə Ə.Kərimlinin başqalarına qarşı etdiyi xəyanətlər onun öz başına da gələcək.

***Rövşən RƏSULOV***



# Abırları olsaydı...

**RƏFİQƏ**

Deyir abır yaxşı şeydir, ancaq baxır kimdə və ya onu anlaya biləndə. Anlamaq da hamıda olmur. Elə götürək "müxalifət" deyilən dağıdıcı düşərgə sakinlərini. Deyəcəksiniz ki, diri ikən ölü olan bu düşərgə sakinləri nəyi anlayır ki, abır nə olduğunu da anlasınlar. Doğru deyirsiniz, amma bunu anlaya bilirlərmi? Bax, elə bələ da budur ki, 25 illik zaman müddətində, düzəlməyən müxalifətin bundan sonra düzəlməsi, ümumiyyətlə, inandırıcı görünmür. Amma gəl gör, bunlar bəri başdan, hansı oyunlardan çıxırlar? İndi də başlayıblar, "lider" axtarışına. Bir tərəfdən AXCP sədri Ə.Kərimli, digər tərəfdən də keçmiş başqan İsa Qəmbər. Bir tərəfdən, Ə.Kərimlinin dirijor çubuğu ilə idarə olunan "Milli Şura", digər tərəfdən də sabiq başqan İsa Qəmbərin dirijor çubuğu ilə idarə olunan Müsavat partiyası. Özlərini dağa-daşa çırpıb, zorla ictimai rəyə sırınmağa müxtəlif cəhdlər edirlər, ancaq bu cəhdlərə baxmayaraq, hər ikisi qürub çağının son prosesini yaşamaqdadırlar. Yəni köhnə hamam, köhnə tas. Artıq nə mitinq, nə piket, nə söyüş, nə alqış, nə də qarğış - heç biri bunların dadına-zadına çatan deyil.

Bəs, belə olan halda, siyasətdə qalmağa dəyərmi? Görünür, Tanrının bizə bəxş etdiyi o hissiyyatın nə olduğunu hələ bu günə kimi anlamayıblar. Anlasaydılar, Müsavatla AXCP-nin rəhbərliyi başda olmaqla, düşərgədəki naftalin iyi verən "liderlər" siyasətdə qürub çağının çatdığını qəbul edərdilər.

Amma fakt budur ki, "liderlər" indiyə kimi həyasızlıq nümayiş etdirməklə, guya xalqın "dərdinə şərik" olduqlarını nümayiş etdirirlər. Bu qədər həyasızlıq olar? Hansı xalqdan danışırlar, bax, bu, müəmmalı qalır. Axı, bildiyimiz qədər, xalq onları 2003-cü ildən dəstəkləmir. Dəməli, necə ki, xalq bunlardan imtina edibsə, özləri də özlərini xalqdan təcrid ediblər. Onda bunlar nəyi gözləyirlər? Niyə siyasətin bunlarlıq olmadığını kişi kimi qəbul edib, siyasi arenanı üzüsulu tərk etməyə cürətləri çatmır? Sözsüz ki, sualın cavabı çox bəsitdir. Çünki heç vaxt xalqı düşünməyiblər, əksinə, xalqdan öz şəxsi mənfəətləri üçün istifadə edərək, qrantlar, pul-paralar dalınca qaçıblar. Və bu qaçışla saxta vəsiqə alveri ilə "mühacir biznesi" qurublar. Ay anlamazlar heç olmasa, bunu anlayın ki, bunun son var. Və bu sona qürub deyirlər. Az qalıb, artıq sizlər qürub çağındasınız...

# "Əli Kərimli muzdlu kölə rolunda çıxış edir"

***Son günlər AXCP sədri Əli Kərimli dağınıq və pərakəndə halda olan müxalifət partiyalarının birləşməsi, birliyi ilə bağlı müxtəlif təşəbbüslər və ideyalarla çıxış edir. Hətta partiya sədrlərinə də telefon açıb, onlarla söhbətlər aparır. Sual yaranır, "Milli Şura" adlı bir qurum olduğu halda, Ə.Kərimlinin başqa bir müxalif birliyin yaradılması təşəbbüsü ilə çıxış etməsini anormal təşəbbüs kimi qiymətləndirmək olarmı? Söhbət etdiyimiz müsahiblərimiz Ə.Kərimlinin yeni bir müxalif birliyin yaradılması ideyasının özünün deyil, xarici maraqlı dairələrin uğursuz təşəbbüsü olduğunu bildirdilər.***

**"Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov: "Əli Kərimli heç zaman öz ağlı ilə hərəkət etmir "**

- Müxalifət düşərgəsini təmsil edən liderlərin hər hansı bir məsələ ilə bağlı bir araya gəlmələri qeyri-mümkündür. Çünki onların arasında uzun illərdir ki, davam edən bir çox ciddi ziddiyyətlər var. Müxalifət partiya sədrləri arasında olan bu ziddiyyətlər, hətta bö-



yük dava-dalaşlara da səbəb olub. Uzun illərdir ki, müxalifət düşərgəsini təmsil edən qüvvələrin ancaq öz aralarında didişməkdən başqa bir fəaliyyətləri yoxdur. Müxalifət təmsilçiləri arasında münasibətlər səmimi olmadığına görə, hər zaman müəyyən siyasi etikadan kənar davranışlara yol verilir. Ona görə də, müxalifət heç vaxt bir araya gələ bilməyəcək. Müxalifət liderlərinin səhv siyasətlərinin nəticəsi olaraq, partiyalardan istefalar və qopmalar baş verəcək. Bu baxımdan, Ə.Kərimlinin birləşmək istəyi ilə bağlı verdiyi populist və məntiqsiz bəyanatlar gündəmdə qalmaq üçün verilən boş bəyanatlardan başqa bir şey deyil. Ümumilikdə, Ə.Kərimli, heç zaman öz ağlı ilə hərəkət etmir. O, başqalarının fikrini və təkliflərini səsləndirir. Yəni Ə.Kərimli muzdlu kölə rolunda çıxış edir. Bu isə, onun siyasətçi deyil, bazar adamı olduğunu bir daha təsdiqləmiş olur.

**TOHGMİB-nın sədri Emin Həsənli: "Müxalifət partiyalarını növbəti fəlakət gözləyir "**

- Müxalifət düşərgəsini təmsil edən liderlər zaman-zaman xaos və anarxiya burulğanında əzilən müxalifət partiyalarının parçalanmalarının qarşısını almaq, birlik modelini reallaşdırmaq arzusu ilə müxtəlif ideyalar və təkliflər irəli sürüblər. Amma istəkləri reallaşmayıb. Çünki, birinci partiya və aparıcı lider olmaq iddiaları onlara istəklərini reallaşdırmağa imkan verməyib. Ümumiyyətlə, müxalifət partiyalarının inkişafdan qalması, cəmiyyətdəki ictimai-siyasi proseslərə təsir edə bilməməsinin səbəblərini, məhz həmin liderlərin yarıtmaz siyasət aparmaları ilə əlaqələndirmək lazımdır. Düşünürəm ki, bu partiyalar da həmin liderlərin şəxsi maraqları üzərində qurulub. Demək olar ki, adları çəkilən partiyalar, ancaq bir şəxsin iradəsindən asılıdır. Ona görə də, bu kimi partiyalar normal bir partiyaya çevrilərək, fəaliyyət göstərə bilmirlər. Bunun da, əsas səbəbi,



uzun illərdir ki, bu partiyaların başında oturan və öz şəxsi maraqlarını güdən liderlərlə bağlıdır. Ə.Kərimlinin müxalifəti birləşdirmək arzusu elə arzu olaraq qalacaq. Çünki müxalifətin birliyinə qarşı çıxanlardan biri elə Ə.Kərimlinin özüdür. Bu baxımdan, müxalifət partiyalarını növbəti fəlakət gözləyir.

***GÜLYANƏ***

# İnsan hüquqlarının müdafiəsi dövlətin ən ali vəzifəsidir

**_Bu gün cəmiyyətdə diqqət mərkəzində olan aktual problemlərdən biri də insan hüquq və azadlıqlarıdır. Bu problem siyasi-hüquqi problemlər sırasında mühüm yer tutur. İnsan hüquq və azadlıqları elmi-tədqiqat araşdırmalarının əsas predmetidir. İnsan hüquqlarının müdafiəsi dövlətin ən ali vəzifəsidir. Milli inkişafın ən vacib şərti insan haqlarının qorunması və müdafiəsidir._**

Hüquqi dövlət dedikdə, insan hüquq və azadlıqları, onların yüksək səviyyədə müdafiəsi başa düşülür. Vətəndaşların hüquqlarını təmin etmək və qorumaq dövlətin başlıca funksiyasıdır.

İnsan hüquqları baza və pozitiv hüquqlara ayrılır. Heç kəs insanı təbii hüquqlarından heç bir şəkildə məhrum edə bilməz. Bura yaşamaq, şəxsi toxunulmazlıq, həyat fəaliyyətini azad seçmək, vicdan, fikir, əqidə azadlığı və s. aiddir.

Bütün bunlar insan hüquqlarının əsasını təşkil edir. Müasir cəmiyyəti azadlıq, sərbəst yaşamaq, bərabərlik, ədalət prinsiplərinə əsaslanan və universal xarakterli insan hüquqları olmadan təsəvvür etmək mümkün deyil. Çünki bir dövlətin hüquqi dövlət kimi var olması və inkişafı, bir cəmiyyətin azad cəmiyyətə çevrilməsi, məhz insan hüquqlarının vəziyyətindən, bu hüquqların həcmindən və necə həyata keçirilməsindən asılıdır.

İşgəncə nədir? Latınca bükmək, burmaq mənasını daşıyan "toture" (işgəncə, əzab vermə) insanlıq tarixi qədər yaşı olan bir cəzalandırma üsuludur. Qədim zamanlardan bəri işgəncənin cəza, qorxutma və etiraf üçün tətbiq edildiyi məlumdur.

Tarix boyunca daha çox dinə qarşı çıxanlara, homoseksualistlərə, cadugərliklə məşğul olanlara, vətənə xəyanət edənlərə və zina edənlərə qarşı müxtəlif işgəncələr həyata keçirilmişdir. İşgəncə ilə bağlı ən qədim məlumata bir misirli şairin yazısında rast gəlinir. Şair II Ramsesin 1300-cü ildə kölələrə və istilaçılara tətbiq etdiyi işgəncələrdən bəhs etmişdir.

Tarixdən də bəllidir ki, işgəncələr bir çox dövlətlər tərəfindən həyata keçirilmişdir. Xüsusilə, Qədim Misir, Assuriya, Yunanıstan, Roma və digər qədim dövlətlərdə müxtəlif işgəncə növləri tətbiq edilmişdir. Romalılrın ədalət sistemində Talion prinsipini-"həyata görə həyat, gözə-göz, dişə-diş" rəhbər tutulması bir çox ölkələrin ədalət sistemində önəmli faktora çevrilmişdir. Roma imperatorluğunda bir qulun ifadəsi yalnız işgəncə altında alınarsa, qəbul edilirdi. Çünki bir qulun öz iradəsi və öz istəyi ilə həqiqəti söyləyəcəyi mümkün sayılmırdı.

Avropa ölkələrinin bir çoxunda orta əsr məhkəmələri müttəhimin günahlılıq dərəcəsinə və sosial statusuna görə, işgəncə vermə qərarları çıxarmışlar. O zaman işgəncə ədalət sistemində mühüm yer tuturdu. İşgəncənin tətbiqi cinayət prosesinin istintaq forması ilə bağlı idi. Etiraf, cinayət törədən şəxslərin adlarının açıqlanması məqsədilə istifadə olunurdu. İnkvizisiya məhkəmələrində işgəncədən istifadə 1252-ci ildən başlamış və yalnız 1816-cı ildə Roma katolik kilsəsi tərəfindən qadağan olunmuşdur. İşgəncələr, həmçinin, protestantlığın radikal cərəyanları arasında da yayılmışdır.

Orta əsrlərdən XVIII əsrədək işgəncələrdən qanuni soruşdurma, məhkəmələrdə etiraf və ifadə almaq məqsədilə istifadə olunurdu.

İnsan hüquqlarının rəsmiləşdirilməsi sahəsində ilk cəhdlərə XIII əsrdə rast gəlmək mümkündür. Məsələn, İngiltərənin 1215-ci il "Böyük Azadlıqlar Xartiyası"nda, 1689-cu il "Hüquqlar haqqında Bill"də, ABŞ-da qəbul edilmiş 1776-cı il "İstiqlaliyyət Bəyannaməsi"ndə, 1791-ci il "Hüquqlar haqqında Bill"də 1789-cu il Fransada elan olunmuş "İnsan və Vətəndaş Hüquqları haqqında Bəyannamə"də insan hüquqları rəsmi ifadəsini tapmışdır.

Avropada işgəncələrin tətbiqinin məhdudlaşdırılması, yalnız XVII əsrin sonlarında müşahidə edilir ki, bu da, humanist maarifləndirmə ideyalarının yayılması ilə bağlıdır. Məhkəmə icraatı zamanı işgəncənin bütün növlərinin ləğv edildiyi birinci ölkə Prussiya olmuşdur. Orada işgəncələr faktiki olaraq 1754-cü ildən ləğv edilmişdir (formal olaraq, 1805). İşgəncələr Danimarka 1770, Rusiyada II Yekaterinanın gizli fərmanı ilə 8 noyabr 1774-cü ildə (rəsmi olaraq, I Aleksandrın 27 sentyabr 1801-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir). Avstriyada 1776-cı ildə (bəzi məlumatlara görə 1787), Fransada 1780-ci ildə (inqilabçı Milli Assambleya tərəfindən 1789-cu ildə təsdiq edilmişdir), Niderlandda 1789, Siciliya Krallığında 1789, Avstriya Niderlandında 1794, Venetsiyada 1800, Bavariyada 1806, Papa Vilayətində 1815, Norveçdə 1819, Hannoverdə 1822, Portuqaliyada 1826, Yunanıstanda 1827-ci ildə ləğv olunmuşdur. Avropa ölkələrindən ən gec İsveçrə işgəncəni ləğv etmişdir. Sürix kantonu 1831, Friburq kantonu 1848, Bazel kantonu 1850, Qlarus kantonu isə 1851-ci ildə işgəncələri ləğv etmişdir. İngiltərədə isə işgəncələrin bəzi növlərinin qadağan edilməsi məlumdur. Məsələn, 1772-ci ildə İngiltərədə "peine forte et dure" (fr. güclü və davamlı əzab) qadağan edilmişdir. Bu, anqlo-sakson hüquq sistemində məhkəmə qarşısında çıxış etməkdən imtina edən şübhəli şəxsə tətbiq edilən işgəncə növüdür. Yerə uzadılmış insanın sinəsinə lövhə qoyulur, onun üzərinə daşlar yığılırdı və tədricən təzyiq artırılırdı və nəticədə, bu işgəncə ölümə gətirib çıxara bilirdi.

Məhkəməyə çıxarılması üçün şübhəli şəxs öz günahını etiraf etməliydi. Əgər o, səssiz qalıb susmaqda davam edərək, bu işgəncə altında ölərdisə, formal olaraq, günahsız sayılırdı. Ölüm cəzasının tətbiq olunması nəzərdə tutulan bəzi cinayətkarlar "peine forte et dure" ilə ölməyi üstün tuturdular ki, bu halda da, onların əmlakı müsadirə olunmurdu və vərəsələrinə keçirdi.

İşgəncələrə və digər qəddar, pis, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Birləşmiş Millətlər Təşkilatının Konvensiyasının 1-ci maddəsində işgəncəyə belə bir anlayış verilmişdir:

İşgəncə - hər hansı bir şəxsə ondan və ya başqa şəxsin məlumat almaq, yaxud onun etirafına nail olmaq, onu və ya başqa şəxsi törətdiyi, yaxud törədilməsində şübhələnilən hərəkətə görə cəzalandırmaq, həmçinin, onu və ya başqa şəxsi qorxutmaq və ya məcbur etmək, yaxud dövlətin vəzifəli şəxsi və ya rəsmi şəxs kimi çıxış edən başqa bir şəxs tərəfindən, yaxud da onların təhriki və ya onların bixəbərliyi, yaxud göz yumması ilə hər hansı xarakterli ayrı-seçkiliyə əsaslanan istənilən səbəbə görə qəsdən güclü fiziki, yaxud mənəvi ağrı və əzabverici hərəkətlər deməkdir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

İşgəncə anlayışında 3 element əhatə olunur:

1.qəsdən fiziki və ya psixi cəhətdən iztirab vermə;

2.bilavasitə və ya dolayısı ilə iştirak edən şəxs tərəfindən iztirab vermə;

3.müəyyən məqsədlə iztirab vermə.

BMT-nin İşgəncə Əleyhinə Konvensiyasının 1-ci maddəsində verilmiş "işgəncə" tərifi üç müştərək elementi ehtiva edir:

-işgəncə beynəlxalq hüquqa əsasən, qadağan edilir və heç vaxt ona bəraət qazandırıla bilməz;

-işgəncənin qadağan edilməsi mütləqdir və qeyd-şərtsizdir;

-qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaların da qadağası mütləqdir və qeyd-şərtsizdir.

Konvensiyaya əsasən, işgəncə müəyyən məqsədlərə nail olmaq üçün tətbiq olunur:

1.Hər hansı şəxsdən və ya başqasından məlumat almaq;

2.Hər hansı şəxsin və ya başqa şəxsin etirafına nail olmaq;

3.Hər hansı şəxsi və ya başqa şəxsi törətdiyi və ya törədilməsində şübhələnilən hərəkətə görə cəzalandırmaq;

4.Hər hansı şəxsi və ya başqa şəxsi qorxutmaq;

5.Hər hansı şəxsi və ya başqa şəxsi məcbur etmək;

6.Hər hansı ayrı-seçkiliyə əsaslanan istənilən səbəb.

İşgəncənin anlayışına hüquqi qiymət verilməsi üçün məqsədin mövcud olması vacibdir. Başqa sözlə desək, əgər məqsəd yoxdursa, onda bu cür əməlləri işgəncə kimi qiymətləndirmək çətin olur.

Şəxsi etirafa məcbur etmək məqsədilə "ona işgəncə vermə" dedikdə, şəxsin hər hansı hüquq pozuntusuna (cinayəti, inzibati xətanı, intizam xətasını və ya mülki-hüquq pozuntusundan yaranan zərəri) törətdiyini bildirməsinə nail olmaq üçün onun barəsində işgəncə kimi nəzərdə tutulmuş əməlin törədilməsi başa düşülməlidir. Bu zaman zərərçəkmiş şəxsin etirafına məcbur edildiyi hüquq pozuntusunu törədib-törətməməsinin əməlin tövsiyə üçün əhəmiyyəti yoxdur.

Törətdiyi və ya törədilməsində şübhə doğurduğu əmələ görə həmin şəxsi cəzalandırmaq məqsədi ilə ona işgəncəvermə o halda, mövcud olacaqdır ki, şübhəli şəxsə, təqsirləndirilən şəxsə, məhkuma və ya barəsində, rəsmi olaraq, cinayət təqibi başlanmamış istənilən şəxsə qarşı onu qanunvericilikdə nəzərdə tutulan cinayətcəza sistemindən kənara çıxmaqla, cəzalandırmaq məqsədi ilə işgəncə kimi nəzərdə tutulmuş əməl törədilmiş olsun.

Qorxutmaq və ya hədə-qorxu gəlmə, zərərçəkmiş şəxsi maddi və ya sair yardımdan məhrum etməklə, işdən çıxarmaqla, yaşayış sahəsindən qovmaqla, barəsində rüsvayedici məlumatlar yaymaqla və s. hədələmədə ifadə oluna bilər.

Məcburetmə dedikdə, prokuror, müstəntiq və ya təhqiqatçı tərəfindən və ya onların təhriki ilə dindirmə zamanı hədələməklə, şantajla, ləyaqəti alçaltmaqla və ya sair qanunsuz hərəkətlər tətbiq etməklə, şübhə edilən şəxsi, təqsirləndirilənı, zərərçəkmiş şəxsi, şahidi ifadə verməyə, habelə, eksperti rəy verməyə məcbur etmə başa düşülür.

Burada hədələmə dedikdə, dindirilən barəsində onun üçün hansısa xoşagəlməz və arzuolunmaz nəticələrin olacağı kimi, qorxutmanın müxtəlif formaları başa düşülür. Şantaj dedikdə, dindirilənin onu ləkələyəcək hansısa əməllərin və sənədlərin elan ediləcəyi hədəsi ilə qorxutma başa düşülür. Ləyaqəti alçaltma dedikdə, dindirilən şəxsə münasibətdə həyasız, ədəbsiz xarakterli, insanı hörmətdən salan, təhqir edən hərəkətlər etmə başa düşülür. Digər qanunsuz hərəkətlər dedikdə isə, iş üzrə müvafiq məlumatları dindiriləndən almaq məqsədilə onun barəsində edilən müxtəlif əxlaqsız və qanunazidd hərəkətlər başa düşülür.

Hər hansı ayri-seçkilik dedikdə, şəxsin vətəndaşlıq, sosial, irqi, cinsi, milli, siyasi və dini mənsubiyyətinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə və əqidəsinə əsaslanan əlamətlər nəzərdə tutulur. Bu əlamətlərə görə, ayrı-seçkiliyin qadağan olunması bir çox Konvensiyalarda öz əksini tapmışdır.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# Yaponiyada orta ömür həddi rekord səviyyəyə çatıb



Yaponiyada ötən il orta ömür həddi həm qadınlar, həm də kişilər arasında rekord səviyyəyə çatıb. Heysey dövrünün başladığı 1989-cu illə müqayisədə ömrün davam etməsi 5 il yarım artıb. Yaponiya Səhiyyə Nazirliyinin məlumatında deyilir ki, 2018-ci ildə ölkədə orta ömür həddi qadınlar arasında 87,32 il, kişilər arasında isə 81,25 il təşkil edib. Bildirilir ki, bu, ardıcıl olaraq yeddi ildir davam edir.

Yapon qadınların orta ömür həddi dörd il ardıcıl davam edərək bütün dünyada Honkonqdan sonra ikinci, yapon kişilərin isə Honkonqdan və İsveçrədən sonra iki il ardıcıl davam edərək üçüncü olub.

# Günəş şüalarının zərərli təsirindən necə qorunaq?



Günəş şüaları bir sıra xəstəliklərin müalicəsində əhəmiyyətli rol oynayan antibakterial təsirə malikdir. AZƏRTAC tibbi saytlara istinadla xəbər verir ki, Günəşin fotosintez və vitamin yaranmasını təmin etmək, istilik və işıq yaymaq, mikrobları öldürmək və insan əhval-ruhiyyəsinə müsbət təsir göstərmək kimi faydalı xüsusiyyətləri var. Bəzi dəri xəstəliklərinin müalicəsi üçün də Günəş şüaları məsləhət görülür. Günəş işığı həm də xoşbəxtlik hormonu ifrazını artırır.

Bütün bunlara baxmayaraq, Günəş şüalarının həddindən artıq qəbulu xəstəliyə və xroniki proseslərin kəskinləşməsinə səbəb ola bilər. Günəş şüalarının ən təhlükəlisi ultrabənövşəyi şüalardır, çünki həmin şüaların təsiri bədəndə müxtəlif ləkə, səpgi, dermatoz və bir sıra digər dəri xəstəliklərinin əmələ gəlməsinə səbəb ola bilər.

Həkimlər Günəş şüaları altında qaralma zamanı yol verilən səhvlər və qaydalara riayət olunmamasının bədəndə bir sıra fəsadlara, o cümlədən bədxassəli şişlərin yaranmasına da səbəb ola biləcəyini bildirirlər. Ona görə də günəş vannası müəyyən normalar daxilində qəbul edilməldir.

Günəş şüalarının zərərli təsirindən qorunmaq üçün geniş kənarları olan şlyapa qoymaq, eynək taxmaq, açıq rəngli yüngül geyimlərdən istifadə etmək lazımdır. Buludlu havalarda Günəş radiasiyası yarıbayarı azalır, buna baxmayaraq həmin hava şəraitində də qorunmaq və kölgədə qalmağa çalışmaq lazımdır. Ona görə də günorta saatlarında açıq havada olmaq məsləhət deyil. Bol maye qəbul etmək də vacib şərtlərdən biri sayılır.

# On ölkənin tanınmış musiqi kollektivi Bakıya gələcək



Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 18-dən 30-dək Üzeyir Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, builki festival çərçivəsində 40-dək tədbirin təşkili nəzərdə tutulur. Festivalda ABŞ, Rusiya, Çin, Türkiyə, İtaliya, Özbəkistan, Belarus, Bolqarıstan, Ukrayna və Gürcüstandan tanınmış musiqi kollektivləri iştirak edəcək. Həmişə olduğu kimi, bu dəfə də festivalın proqramı zəngin olacaq.

# Müziklər rejissoru Harold Prins vəfat edib



Brodvey Teatrının rejissor və prodüseri Harold Prins 91 yaşında vəfat edib. Bu barədə məlumatı "Assoşieyted Press" agentliyi yayıb. Agentliyin publisisti Rik Miramontesin məlumatına görə, rejissor qısa sürən xəstəlikdən sonra İslandiyanın Reykyavik şəhərində dünyasını dəyişib. Harold Prins "Opera kabusu", "Kabare", "Vest Sayd əhvalatı" və "Suini Todd" kimi müzikllərə quruluş verib. O, 21 dəfə "Toni" mükafatının laureatı olub.


# səs

Son səhifə 2 avqust


# "Qarabağ" darmadağınla qazandı!




"Qarabağ" Futbol üzrə UEFA Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində cavab oyununa çıxıb. Ağdam klubu "Dalğa Arena"da İrlandiya çempionu "Dundalk"ı qəbul edib. Dublindəki ilk oyunda 1:1 hesablı heç-heçəyə razılaşan Qurban Qurbanovun komandası ev qarşılaşmasında 3:0 hesablı qələbə qazanıb və 3-cü təsnifat mərhələsinə yüksəlib. "Qarabağ" növbəti raundda Kiprin APOEL klubu ilə üz-üzə gələcək. Qeyd edək ki, "Dundalk" isə Avropa Liqasının 3-cü təsnifat mərhələsində Çexiyanın "Slovan" klubu ilə qarşılaşacaq.

# Neymar PSJ-dən ayrılmaqda israrlıdır



Neymar PSJ-dən ayrılmaqda israrlıdır. "Sport.es" nəşrinin yaydığı xəbərə görə, braziliyalı hücumçu bununla klub rəhbərliyinə bildirib. Qeyd olunub ki, 27 yaşlı oyunçu "Barselona"dan yeni təklif gözləyir. Onun Fransa klubunun formasını geyinmək istəmədiyi vurğulanıb. Qeyd edək ki, Neymarın PSJ ilə müqaviləsi 2022-ci ilin iyununda başa çatır.

# Puyol "Barselona"ya qayıdır



"Barselona"nın əfsanəvi kapitanı Karles Puyol yenidən doğma komandasında çalışa bilər. Matc.az saytının xarici mətbuata istinadən məlumatına görə, Kataloniya klubu ona baş menecerlik vəzifəsini təklif edib.

Rəhbərlik Pep Sequranın istefasından sonra yaranan boşluğu məhz Puyolla doldurmaq niyyətindədi. Ona artıq təklif edilib və sabiq müdafiəçi düşünmək üçün vaxt istəyib. Kataloniyalıların bu post üçün digər namizədi isə hazırkı texniki direktor Erik Abidaldı.

Qeyd edək ki, Karles Puyol 2014-cü ildə "Barselona"da idman direktorunun müavini kimi çalışıb. O, həmin vəzifədən ayrıldıqdan sonra menecer kimi çalışmağa başlayıb və FIFA səfiri olub.

# Ronaldu villasını Pepeyə satıb



İtaliyanın "Yuventus" klubunun futbolçusu Kriştianu Ronaldu villasını endirimli qiymətlə Portuqaliya millisində komanda yoldaşı olan Pepeyə satıb. "The Sun" nəşri yazır ki, hazırda "Portu"da çıxış edən Pepe Ronaldunun vətənində 3,5 milyon funt sterlinqə aldığı malikanəyə 2,3 milyon funt sterlinq ödəyib.

Qeyd edək ki, bir müddət əvvəl Ronaldunun İspaniyanın Marbelya şəhərində 1,3 milyon funt sterlinqə villa alması ilə bağlı xəbərlər çıxıb.

# Qadın güləşçilərimiz dünya çempionatına Türkiyədə hazırlaşırlar



Güləş yığmalarımız sentyabrın 14-dən 22-dək Qazaxıstanın paytaxtı Nur-Sultanda keçiriləcək dünya çempionatına hazırlığı davam etdirirlər. Belə ki, kişi komandalarımızdan fərqli, qadınlardan ibarət millimiz ölkə xaricində təlim-məşq toplanışı keçir. Baş məşqçi Aslan Ağayevin və məşqçi Rövşən Umudovun rəhbərliyi altında iyulun 21-dən Türkiyənin Niğdə şəhərində yerli yığma komanda ilə birgə hazırlıq keçən millimiz avqustun 4-dək toplanışı davam etdirəcək. Hazırlıq prosesi əsasən fiziki hazırlıq üzərində qurulub. Qeyd edək ki, heyətdə gənc güləşçilərimiz də yer alıblar. Onlar avqustun 12-dən 18-dək Estoniyanın paytaxtı Tallinndə keçiriləcək gənclərin dünya çempionatına hazırlaşırlar.əə


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**